# DÜŞÜNƏN İNSAN

№ 15- Noyabr 2012 - 2 AZN



AXIRZAMANIN

## ƏN BÖYÜK PROBLEMİ:

# Sevgisizlik

- Qadınları alçaldan nəzəriyyə: darvinizm
- Peyğəmbərimiz (s.a.v) musiqi dinləyirdi
- Bitkilərdəki sərinləmə mexanizmi
- Quranda təkamül yoxdur
- Hisslərimizi istiqamətləndirən nahiyə: "AMİQDALA"

## 2 FİLM HƏDİYYƏ

MÜASİR DÖVRDƏ BATİL BİR DİN: NEW AGE (YENİ ERA)

QURAN MÖCÜZƏLƏRİ

# HARUN YƏHYA KİTABLARI İNDİ DAHA UCUZ QİYMƏTƏ




**GLOBAL PUBLISHING**

**SİFARİŞ ÜÇÜN:**
**globalkitab@gmail.com**
**Tel: (077) 381 61 91**

- www.tekamulinternasional.com
- www.heyatingercekmenseyi.com
- www.maddeninardindakisirr.net
- www.canlilardakamuflyaj.com
- www.adamliqdini.com
- www.mehdiqanaxitmaz.com
- www.harunyehyakitablari.com
- www.Allahinrizasi.com
- www.dinsizliyindini.com
- www.Allahinsonsuzgucu.net

DÜŞÜNƏN İNSAN - Noyabr 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91 ; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat No 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər

*DÜŞÜNƏN İNSAN ; NOYABR 2012*

Hər işi Allah edir 3
İslam dünyasında keçən ay 4
Elmi-texnoloji xəbərlər 6
Peyğəmbərimiz (s.ə.v) musiqi dinləyirdi 12
Yanlış olmayan davranışlar deyil, ən gözəl davranışlar idealdır 16
Bir ayə, bir açıqlama 22
Bunları bilirdinizmi? 27















# içindəkilər



Qadınları alçaldan nəzəriyyə: darvinizm 38

Allahın qədrini haqqı ilə necə təqdir etmək olar? 42

Quran əxlaqı ilə necə yaşamaq olar? 44

Xilasa aparan yol: təmiz ağıl sahibi olmaq 52

Atom nüvəsindəki möhtəşəm xüsusiyyətlər 59

Fosillər təkamülü təkzib edir 64


















# HƏR İŞİ ALLAH EDİR



...atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirtsin. Həqiqətən, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi 17)

Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir! (İnsan surəsi 30)

Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır". (Saffat surəsi 96)

## GƏMİLƏRİ ÜZDÜRƏN ALLAHDIR

Lütfünə nail olasınız deyə dənizdə gəmiləri sizin üçün hərəkətə gətirən Rəbbinizdir. Həqiqətən, O sizə qarşı rəhmlidir. (İsra surəsi 66)

Dənizdə dağlar kimi, yelkənləri qaldırılmış halda üzən gəmilər də Onundur. (Rahmən surəsi 24)

Su aşıb-daşdıqda Biz sizi üzən gəmidə daşıdıq. (Haqqə surəsi 11)

## QUŞLARI HAVADA TUTAN ALLAHDIR

Məgər onlar (başları) üzərində dəstə-dəstə pərvazlanıb (uçan), (hərdən də qanadlarını) yığan quşları görmürlərmi? Onları (havada) ancaq Mərhəmətli (Allah) saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür. (Mulk surəsi 19)

Məgər onlar (Allah'a)tabe olub havada uçan quşları görmürlərmi? Onları (havada) saxlayan ancaq Allahdır. Həqiqətən, bunda iman gətirən insanlar üçün dəlillər vardır. (Nəhl surəsi 79)

Biz o hökmü Süleymana anlatdıq. Hər ikisinə hökmranlıq (peyğəmbərlik) və elm bəxş etdik. Biz dağları və quşları Davudla birlikdə (Allah'ı) tərifləmələri üçün (ona) ram etdik. Bunları Biz etdik. (Ənbiya surəsi 79)



## İSLAMIN DƏYƏRLƏRİ MƏRHƏMƏT VƏ ƏDALƏTƏ ƏSASLANIR



Rusiya prezidenti Vladimir Putin Rusiyada müsəlman təşkilatlarının faydalı fəaliyyətlərini təqdirlə qarşıladığını, dövlətin İslam dünyasının müqəddəs məkanlarına həcc ziyarətləri də daxil olmaqla, müsəlman icmasının inanclarına görə yaşamaq hüquqlarına zəmanət verildiyini söyləyib.

Rusiya Müsəlmanlarının Həcc Təşkilatının qurulmasının 10-cu ildönümünü təbrik edən Putin: "Rusiya müsəlmanları baxımından mürəkkəb problem kimi qalan həcc ziyarətlərinin təşkil edilməsində təşkilat nüfuzunu gücləndirib və problemin həllinə kömək edib" deyə bildirib.

Rusiyada milyonlarla insanın bu tarixi inanca sahib olduğuna toxunan Putin: "İslam Rusiyanın müasir dini, sosial və mədəni həyatının ayrılmaz hissəsidir. Onun dəyərləri yaxşılıq, mərhəmət və ədalətə əsaslanır" deyib.

Müsəlman icmasının Rusiyanın sosial həyatında fəal rol oynadığını da vurğulayan Putin: "ailə dəyərlərinin gücləndirilməsinə kömək edir. Din tolerantsızlıq və ifratçılığa qəti qarşıdır" şəklində nitq söyləyib.

Rusiya dövlət başçısı bir neçə gün əvvəl Tatarıstanın Bolqar şəhərinə getmiş, burada dünyanın ən böyük Qurani-kériminə baxmışdır. Putin tatarların İslamı qəbul etmələrinin xatirəsinə qurulmuş muzey və Ağ Məscidə də baş çəkmişdir.

Rusiyanın baş naziri Dmitri Medvedyev də keçən il verdiyi məlumatda Rusiyadan 22500 vətəndaşın həcc ibadətini yerinə yetirdiyini, bu sayın əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdən daha çox olduğunu bildirmişdi.

143 milyon əhalisi olan Rusiyada 20 milyondan çox müsəlman yaşayır.

## GƏLƏCƏYİN LİDER ÖLKƏSİ TÜRKİYƏ



İqtisadiyyatı ilə dünyada söz sahibi olmağa başlayan Türkiyə SHL-nin "Qlobal liderlik" araşdırmasında ikinci sıradadır.

Ölkələrin lider yetişdirmə potensiallarını dəyərləndirən SHL "Qlobal liderlik" araşdırmasının nəticələrini açıqlayıb. Qabiliyyət analitikası adı altında aparılan tədqiqatda Honq Konq, Almaniya və İngiltərə ən çox lider yetişdirən ölkələr olub. Siyahının ən son sıralarını isə ən az lider yetişdirən ölkələr kimi Braziliya, Danimarka və Norveç tutub. Araşdırmada Türkiyə potensial lider siyahısında ikinci olub.

Növbəti illərdə Türkiyə, Meksika və Misirin ən təsirli liderlər yetişdirmə potensialına malik ölkələr olduğu müəyyən edilib. İngiltərənin keçmişdə ən çox lider yetişdirmə potensialına malik ölkələr arasında olmasına baxmayaraq bu gün əlində bir dinamit daşıdığı, öyrənmə və özünü təkmilləşdirmə məsələlərinə üstünlük vermədiyi təqdirdə dinamitin əlində partlayacağı, rəqabətdə geri qalacağı vurğulanıb. SHL rəhbəri Pol Levett: "təhsil standardlarının artdığı, sahibkarlıq mədəniyyətinin yüksəldiyi Türkiyə, Braziliya, Meksika və Hindistan liderlik potensialının da ən çox olduğu ölkələr arasındadır. Bu ölkələr əllərindəki potensialın fərqinə varıb inkişaf etdirsələr, ciddi böyümə potensialı əldə edə bilərlər" deyib.



## İSLAM BİRLİYİ ÜÇÜN AB NÜMUNƏSİ

Əl-Əzhər şeyxi Əhməd Tayyib bütün məzhəb fərqlərini bir kənara qoyaraq müsəlmanları birliyə çağırıb. Əzhər şeyxi Ərəb və İslam dünyasında bəzi qüvvələrin ümmətin içində ayrılıq və düşmənçiliyə yol açan fikirlərə təşviq etdiyini, bəzi peyk kanallarının da bu istiqamətdə proqramlar yayımladığını qeyd edib. Avropa Birliyi kimi dil, millət, inanc fərqlərinə baxmayaraq, güclü birliklər qurula biləcəyinə diqqət çəkən Tayyib bu bütövlüyün təmin edilməsi üçün Əzhərin üzərinə düşəni etməyə hazır olduğunu bildirib.

## ALEKS: QURANI OXUYUB BİTİRMİŞƏM



Fənərbaxçanın qatı xristian olan kapitanı Aleks de Suzanın uzun müddətdir maraq göstərdiyi Quranı oxuyub bitirdiyi məlum olub.

Bir müddət əvvəl maraqlandığı İslamı öyrənməyə çalışdığını açıqlayan Aleksə bir azarkeşi ‘‘Twitter’’də Quranı oxuyub-oxumadığını soruşub.

“Oxumuşam”, -deyə cavab verən braziliyalı futbolçunun İslam dini haqqında ümumi bilikləri öyrəndiyi məlum olub. Təcrübəli futbolçu keçən aylarda İslam dini və əmrləri ilə maraqlandığını da dilə gətirmişdi.



# Elmi-Texnoloji Xəbərlər

### QEYRİ-ADİ KƏŞF: DNT-KOMPYUTER

Elm adamları 53 min söz, 11 şəkil və kompyuter proqramından ibarət kitabı DNT üzərində şifrələməyə nail olub.

Harvard Tibb Fakültəsindən Professor Corc Çörçün rəhbərliyi altında üç nəfərlik qrup "Science" jurnalında dərc edilən məqalədə 5.25 meqabitlik kitabın bu günə qədər edilən ən böyük şifrələmədən 600 dəfə böyük olduğunu bildirib. Beləliklə, genetik materiala ilk dəfə bu qədər böyük ölçülü məlumat süni şəkildə yüklənilib.

Bu ölçüdə məlumatı DNT-də şifrələmənin bir neçə gün çəkdiyini deyən Dr. Sriram Kosuri: "Əlbəttə, arxiv məqsədli yükləmə üçün bu, uzun müddətdir, ancaq vəziyyət zaman ərzində düzəlir", -deyib. Habelə, şifrələnən məlumatın bu qədər böyük olmasına baxmayaraq, şifrələmədə edilən səhvlərin nəzərə çarpmayacaq qədər kiçik olduğu ifadə edilib.

Mütəxəssislər DNT şifrələmənin maddi dəyərinin sürətlə azalacağını, növbəti 5-10 il arasında məlumatları DNT-də saxlamağın bugünkü rəqəmsal vasitələrlə müqayisədə daha az yer tutacağını bildiriblər.

**1 qramı 100 milyard DVD-yə bərabərdir**

1 qram DNT-yə 455 milyard qiqabaytlıq məlumat yükləmək mümkündür. Bu da 100 milyard DVD-lik məlumatdan daha çoxdur. DNT-nin bu qədər kiçik hissədə bu qədər böyük məlumat daşıması üç-ölçülü olmasından irəli gəlir.



Daha əvvəl atom kimi cansız varlıqlara məlumat yükləməyə çalışan elm adamları bu zərrəciklər iki-ölçülü olduğuna görə, istənilən nəticəni ala bilməmişdilər.

**Min illərlə saxlamaq mümkündür**

DNT ənənəvi rəqəmsal məlumat yükləmə sistemlərinə nisbətən daha çox üstünlüyə malikdir. Asanlıqla surətini çıxarmaq mümkündür, ideal olmayan şəraitdə saxlanılsa belə, min illər sonra yenidən oxumaq mümkündür. Kaset və ya DVD kimi sürətlə dəbdən düşən texnologiyaların əksinə, DNT üzərində şifrə yazılması və oxunması bəşəriyyət mövcud olduqca davam edəcək.

Habelə, insanlar bu yolla nəhəng kitabxananı heç bir çətinlik çəkmədən hüceyrələrində daşıya biləcəklər. Dırnaq ucu qədər yerə dünyadakı bütün dillərin lüğətlərini sığışdırmaq mümkün olacaq.



## İPƏKDƏN ELEKTRON PROTEZLƏR HAZIRLANACAQ

Hörümçək və ipək böcəyi az xərc tələb edən elektron protezlərin hazırlanmasına kömək ola bilər. Dartıldıqda qopmadan uzunluğunun 30-40%-i qədər gərilən və gərilmə qüvvəsi cəhətdən polada bənzədilən hörümçək toru geyim sənayesindən sonra fiberoptik kabellərin və bio-tibbi cihazların istehsalında da rol oynayacaq.

"Discovery News"-un verdiyi xəbərə görə, insan bədəninə zərərli mis kabel və tərkibində şüşə lif olan biotibbi cihazlar əvəzinə ipəyin insan orqanizminə infeksiya və ya yara riski olmadan uyğun olması protez istehsalı sahəsində istifadə ediləcək yeni cihazlara qapı aça bilər.

## ŞÜA İPƏYƏ MƏLUMAT DAŞIYACAQ

Hər iki canlıdan əldə edilən, saç telinin sadəcə 5 mikrometr qalınlığındakı ipəklər üzərində təcrübə keçirən Fransanın Renn Fizika İnstitutundan Nolven Hubi ipək telləri disk formasındakı "su kisəciklərinə" birləşdirib. Beləliklə, uzun dalğalı şüalar ipəyə yönləndirilib. Tədqiqatçılar yaxşı əks etdirilən şüanın ipəyə məlumat daşıdığını aşkar ediblər.



## İPƏKLƏ TOXUMA QARIŞACAQ

Hubinin tədqiqatlarıyla yanaşı, ABŞ-nın Tafts Universitetindən Fiorenzo Omenetto ipək əsaslı polimerlər üzərində tədqiqat aparıb. Tədqiqatın məqsədi ipəyin tədricən toxumaya qarışmasını təmin edən zülallardan istifadə edərək protezlərin toxuma ilə birləşməsinə nail olmaqdır.

Hörümçək və ipək böcəyindən əldə edilən ipəyin protezlərdə istifadə edilməsinə dair başqa tədqiqat ABŞ-nın İlinoys Universitetindən Con Rocers və tədqiqat qrupu tərəfindən aparılır. Toxumayla qarışan elektron cihazlar üzərində işləyən Rocers ipəyi bu cihazı örtən vasitə kimi düşünür.

Hər iki tədqiqat uğurla nəticələnsə, elm adamları şikəstlikdən xilas olmaq üçün insan orqanizmini maşınlaşdıran texnologiyalarda böyük irəliləyişlər əldə edə bilərlər.

# Quranda Təkamül Yoxdur



Uca Rəbbimiz Quranda bütün canlıları və kainatı "Ol" əmri ilə yaratdığını bildirir. Bəzi din adamları isə Quran ayələrini yanlış şərh edir və Quranda təkamülün olduğunu iddia etməkdə insanları yanıltmağa çalışırlar. Ancaq təkamülə inanan din adamlarının dəlil kimi göstərməyə çalışdıqları ayələr təkamülü yox, uca Allah'ın qüsursuz yaratmasını göstərir:

İnsanların darvinizmin təhlükələrinə və aldatmacalarına qarşı xəbərdar edilməsi və bu cür təhlükəli dünyagörüşün fikirlə təsirsiz hala gətirilməsi həyati əhəmiyyət daşıyır. Ancaq darvinizmi və səbəb olduğu təhlükələri qavraya bilməyən bəzi insanlar darvinizmə qarşı aparılan elmi mübarizənin əhəmiyyətini də anlaya bilmirlər. Bu insanlar darvinizmlə elmi mübarizə aparmaq əvəzinə, bu mübarizədən qaçmaq üçün müxtəlif yollar axtarırlar. Bəziləri "Darvinizm, əslində, o qədər də əhəmiyyətli mövzu deyil" deyərək, bu fikri mübarizəni əhəmiyyətsiz göstərməyə çalışırlar. Bəziləri də, İslamla təkamül nəzəriyyəsi arasında "ortaq məxrəc" meydana gətirməyə çalışırlar. Bunun üçün darvinizmlə İslamı bir-birinə uyğunlaşdırmaqla məşğul olurlar. Bu isə çox ciddi səhvlərə və yanılmalara gətirib çıxarır.

Darvinizmlə İslamiyyət arasında uyğunluq axtarmaq müsəlman üçün mümkünsüz bir şeydir. Allah'ı və yaradılışı inkar edən (Allah'ı tənzih edirik) bir nəzəriyyə ilə "uzlaşmaq" səmimi şəkildə iman gətirənlərə xas olan xüsusiyyət deyil. Üstəlik, Quran ayələrində də, Peyğəmbərimizin (s.ə.v) hədislərində də təkamülə işarə edən bir izah belə yoxdur. İslamla darvinizmi uyğunlaşdırmağa çalışanların yanılmalarından bəziləri aşağıdakılardır:

## I yanılma. İnsanın "təkamül mərhələləri" nəticəsində yaranması

*"Sizə nə olub ki, Allah'ın böyüklüyünü layiqincə uca tutmursunuz? Axı O sizi mərhələlərlə yaratdı. (Nuh surəsi, 13-14)*

Təkamüllə yaradılış yanılmasını müdafiə edənlər yuxarıdakı ayədə keçən "mərhələlərlə" sözünü "təkamül mərhələlərindən keçirərək" şəklində izah edirlər.

"Ətvar" sözü "hal, vəziyyət" mənasını verən "tavr" sözünün cəm şəklidir və Quranda bu şəkildə başqa bir ayədə də keçir. Bu ayədə keçən mərhələlər bir insanın nütfə olaraq çatdığı ana bətnində əvvəl embrion, sonra bir ət parçası, sonra sümük və ət halında inkişaf edib, sonra da insan kimi dünyaya gəlməsini ifadə edir.

## II yanılma. Sudan yaratmanın təkamüllü yaradılışa işarə etməsi

*Həqiqətən, Biz insanı qarışıq bir sudan yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. (İnsan surəsi, 2)*




Təkamüllü yaradılış yanılmasını müdafiə edənlər bir çox ayədə keçən "insanın sudan yaradıldığı" kimi ifadələri də dəlil kimi göstərməyə çalışırlar. Sudan bütün canlıların meydana gəldiyini iddia edirlər. Halbuki, insanın sudan yaradıldığının ifadə edildiyi ayələr də İslam alimləri və təfsirçilər tərəfindən həmişə nütfədən yaradılma kimi açıqlanmışdır.

## III yanılma. Hz. Adəmin ilk insan olmaması

Təkamüllü yaradılış yanılması ilə əlaqədar olaraq ortaya atılan başqa bir iddia isə hz. Adəmin ilk insan olmamasıdır (hz. Adəmi tənzih edirik). Bu batil iddiaya dəlil olaraq aşağıdakı ayə göstərilir:

***Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara:)" Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu. (Bəqərə surəsi, 30)***

Bu iddianı müdafiə edənlər ayədə keçən "xəlifə yaradacağam" ifadəsinin ərəbcə "cəalə" felini "təyin etmək" sözü ilə açıqlayırlar. Yəni hz. Adəmin ilk insan olmadığı, bir çox insan arasından xəlifə olaraq "təyin edildiyini" qarşıya qoyurlar. Halbuki, "cəalə" (yaratmaq, icad etmək, çevirmək, qoymaq, etmək) sözünün Quranda istifadə edilən müxtəlif mənaları var.
Bundan əlavə, bir çox ayədə də hz. Adəmin torpaqdan yaradıldığı bildirilir. Hz.Adəmin xüsusi və fərqli bir yaradılışa sahib olduğu bu ayələrdən də açıq şəkildə aydın olur.

## IV yanılma. Quranda keçən "atalarımız" ifadəsinin təkamüllü atalara işarə etməsi

Təkamül nəzəriyyəsinə aldanmış bəzi müsəlmanlar Quranda bir çox ayədə keçən "atalarınız" sözünü dəlil kimi göstərməyə çalışırlar. Təkamülçülərin yanlış təfsirinə görə, bu ifadədə insanın primitiv atalarına işarə var. Bu səhv şərhi izah etməyə çalışarkən, sözün Quranda cəm şəklində verilməsini dəlil olaraq göstərirlər. Bu ayələrdən biri bu şəkildədir:

*(Musa) dedi: “O sizin də, atalarınızın da Rəbbidir!” (Şuəra surəsi, 26)*

Ancaq bu, Quran əxlaqına uyğun olmayan bir iddiadır, çünki bu söz ayələrdə cəm şəklində çox istifadə olunmuşdur və təkamüllü şərhə heç bir şəkildə uyğun gəlmir.

## V yanılma. İnsanın yaradılış forması ilə əlaqədar olan yanılma

*Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir. Sonra O sizi ora qaytaracaq və yenidən çıxardacaqdır. (Nuh surəsi, 17-18)*

Bu ayə təkamüllü yaradılış yanılmasını müdafiə edən bəzi müsəlmanların ən çox istifadə etdikləri ayədir. Ayədə bildirilən “...yerdən bir bitki kimi bitirdi...” ifadəsi təkamülçülər tərəfindən inorqanik təkamülə dəlil kimi göstərilir. Halbuki, bu ifadə bir çox tərcümədə və təfsirdə işarə edildiyi kimi, ilk insanın torpaqdan yaradılmasını ifadə edir və “torpaqdan başlamaqla nəslinizi yaratdı” mənasında istifadə edilir.

## VI yanılma. Quranda meymunlarla insanlar arasında soy yaxınlığının olması

Bu mövzuda bəzi insanlar tərəfindən yanlış şərh olunan ayələrdən biri də, Allah’ın keçmişdə İsrail oğullarından Allah’ın əmrinə itaət etməyən bir qrupu meymuna çevirməsi ilə əlaqədardır. Ayələr belədir:











***Siz artıq içərinizdən şənbə günü həddi aşanları tanıyırsınız. Biz də onlara: "Mənfur meymunlar olun!"– dedik. Biz bunu onlarla (bir dövrdə) olanlar və onlardan sonra gələnlər üçün ibrət, müttəqilər üçün isə öyüd-nəsihət etdik. (Bəqərə surəsi, 65-66)***

Bu ayələrdən təkamül nəzəriyyəsinə paralel məna çıxıralmayacağı aydındır. Bunun bir neçə səbəbi vardır:

1) Ayədə nəzərdə tutulan cəza böyük ehtimalla mənəvi mənadadır. Yəni İsrail oğullarının bir qrupunun fiziki mənada deyil, xarakter cəhətdən meymuna bənzədilməsi ola bilər (Doğrusunu Allah bilir).

2) Əgər nəzərdə tutulan cəza fiziki mənada reallaşsa belə, bu təbiət qanunlarına uyğun olmayan möcüzə olar. Burada Allah'ın diləməsilə, bir anda möcüzəvi bir çevirmə, yəni şüurlu yaradılış mövcuddur. Təkamül nəzəriyyəsi isə növlərin milyonlarla illik zamanda təsadüfən, yavaş və pilləli şəkildə bir-birlərinə çevrildikləri kimi ağıl və elmdən kənar bir tezis qarşıya qoyur. Bu səbəbdən, Quranda bildirilən bu hadisə ilə təkamülün müdafiə etdiyi ssenarinin bir-biri ilə heç bir əlaqəsi yoxdur. Belə ki, bu ayənin davamında "Biz bunu onlarla (bir dövrdə) olanlar və onlardan sonra gələnlər üçün ibrət, müttəqilər üçün isə öyüd-nəsihət etdik" şəklində buyurulur. Bu ayədə insanların alçaq meymunlar halına gətirilmələrindən sonra gələcəkdəkilərə ibrət olmaları məqsədilə bir möcüzə kimi reallaşdırıldığına işarə edilir (Doğrusunu Allah bilir).

3) Ayədə nəzərdə tutulan cəza tarixdə bir dəfə və məhdud sayda insan üçün reallaşmışdır. Halbuki, təkamül nəzəriyyəsi bütün insanların meymunlarla qohum olduqlarını bildirir.

4) Ayədə insanların meymuna çevrilməsindən danışılır. Halbuki, təkamül nəzəriyyəsi bunun əksini söyləyir.

5) Quranda "Maidə" surəsinin 60-cı ayəsində də Allah'ın qəzəbləndiyi azğın birliyin meymunlara və donuzlara çevrildiyi xəbər verilir. Ayə belədir:

***De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Allah'ın lənətlədiyi, ona qəzəbləndiyi, özlərini də meymunlara və donuzlara döndərdiyi şəxslər və tağuta ibadət edənlərdir. Onlar, (axirətdə) yeri daha pis olan və doğru yoldan daha çox azanlardır!" (Maidə surəsi, 60)***




# PEYĞƏMBƏRİMİZ (S.Ə.V) MUSİQİ DİNLƏYİRDİ

Peyğəmbərimiz (s.ə.v) səhabələrlə birlikdə musiqi çalınan mühitlərdə olmuş, insanları şənlənməyə təşviq etmişdir.

Rəsulullah bir qrup rəqs edən həbəşi gördükdə təqdir edərək: "Yəhudilər və xristianlar bilsinlər ki, bizim dinimizdə genişlik var", -buyurmuşdur.

Buxari və Müslimdə bildirilir:

***Hz. Aişə rəvayət edir: "Bayraq günü iki cariyə qəhrəmanlıq şeirlərini dəf çalaraq tərənnüm edirdi. Rəsulullah yatağına uzandı. Sonra atam (hz. Əbubəkr) içəri girdi. Mənə: "Rəsulullahın hüzurunda bu nə vəziyyətdir?" - dedikdə, Rəsulullah: "Mane olma onlara, hər millətin bir bayramı var, bu da bizim bayramımızdır", -buyurdu".***

Sələmə ibn Əqvadan rəvayət edilmişdir: *"Peyğəmbər (s.ə.v) ilə birlikdə Xeybərə yola düşmüşdük. Gecə gedirdik. Karvandan bir nəfər Əmir ibn Əqvaya – Əmir şairliyi ilə tanınırdı – "Bizə bildiyin şeylərdən oxu, dinləyək"*, -dedi. Əmir dəvəsindən düşərək bu nəğməni oxumağa başladı:

*"Ey Allah'ım! Sən diləməsəydin, biz hidayət tapmazdıq. Sədəqə verib namaz qılmazdıq. Hər şeyimiz sənə fəda olsun, bizi bağışla. Düşmənlə qarşılaşsaq, ayaqlarımızı möhkəm et. İçimizə rahatlıq və hüzur ver. Biz çağırıldıqda gedərik. Səsləndikdə köməyə çatarıq".*

*Peyğəmbər (s.ə.v): "Bu sürücü kimdir?" -soruşdu. "Əmir ibn Əqva", -dedilər. Peyğəmbər (s.ə.v): "Allah onu qorusun", -buyurdu.* (Beyhaki, Şuab, 5112)

Muaz ibn Cəbəl rəvayət edir: "Ənsardan birinin toyunda idik. Həzrəti Peyğəmbər kəbini kəsdikdən sonra: "Allah yaxşı güzəran, xeyir və uğur nəsib etsin, ruzinizə bolluq-bərəkət versin, sizi mübarək etsin", -deyə dua edir. Adəti üzrə bəyin başı üzərində dəf çalınmasını buyurur. Dəf çalınır".

Əmir ibn Saddan rəvayət edilmişdir:

*"Bir toy üçün Karaza ibn Kab və Əbu Məsul əl-Ənsarinin yanına getdim. Kiçik qız uşağı mahnı oxuyurdu. Mən: "Siz Rəsulullahın (s.ə.v) dostları və Bədir əshabından olduğunuz*



*halda, sizin yanınızda bunlar necə edilir?" -dedim. Onlar: "İstəsən, bizimlə qalarsan; istəsən, gedərsən. Bizə toyda əylənməyə icazə verilib", -dedilər.* (İbn Hacer, Metâlib, II, 54; Cüdey', Ehâdîs-ü Zemmî'l-Gınâ, səh. 50)

*Aişə (r.ə) rəvayət edir: "Rəsulullah (s.ə.v) bir toyda ənsarın qadınlarına baş çəkdi. Onlar mahnı oxuyurdular..."* (İbni Mace, Nikah:21, Buhari, Nikah:48, Megazi:12)

*... Mauvviz ibn Əfranın qızı ər-Rubey gəlin olduqda toy məclisinə Peyğəmbərimiz (s.ə.v) də getmiş və onun yanında oturmuşdu. Bu zaman bəzi qızlar dəf çalıb Bədr günü şəhid olanlar haqqında nəğmələr oxuyurdular...* (Buhari , Nikah, 49/1, VII/25, Tirmizi, Nikah, III/399)

İbn Macə bildirir ki, Hz. Aişə mədinəli qohumunu evləndirirdi. Toy yerinə gələn Peyğəmbərimiz (s.ə.v): *"Qızı gəlin etdinizmi?" -deyə soruşur. "Bəli", -deyirlər. Peyğəmbərimiz (s.ə.v): "Qızla birlikdə mahnı oxuyacaq birini də göndərdinizmi?" -buyurur. Həzrəti Aişə: "Xeyir", -dedikdə, Peyğəmbərimiz (s.ə.v) buyurdu: "Ənsar arasında belə günlərdə əyləncə adət-ənənəsi var. Kaş, qızla birlikdə mahnı oxuyacaq birini göndərsəydiniz, onlar da belə mahnı oxusaydılar: "Sizə gəldik, sizə gəldik. Bizə şənlik, sizə şənlik".*

Hz. Aişə (r.ə) bir qadını ənsardan bir nəfərlə evləndirmişdi. Peyğəmbərimiz (s.ə.v) dedi: *"Ey Aişə, sizinlə birlikdə dəf çalan, mahnı oxuyan müğənniləriniz yoxdur? Çünki ənsarın belə oyun və əyləncələr xoşuna gəlir".* (Buhari, Nikah 64/1, VII/28)

İbn Macə bildirir: *"Hz. Peyğəmbər bir dəfə Mədinədə bir yerdən keçərkən dəf çalıb mahnı oxuyan qızların "Nəhnu cəvarin min bəni'n nəccar/ Yə həbbəza Muhammədin min car" (Biz Nəccaroğulları qəbiləsinə mənsub qızlarıq. Hz. Muhəmməd nə yaxşı və nə xoş qonşudur) beytlərini oxuyan qızlara: "ALLAHU YA"LƏMU İNNİ UHİBBUKÜNNƏ" (Allah bilir ki, mən də sizi sevirəm) -deyərək iltifat etdi.* (Kettani, et-Teratib, II, 130; Canan, Hadis Ansiklopedisi, XVII, 199-200) ve (İBNİ MACE, NİKAH 21/1899, I/612)

*Əmr İbn Şüeyb ən əbihi ən cəddihidən rəvayət edilmişdir: "Bir qadın (gəlib): "Ey Allah'ın Rəsulu! Mən sənin yanında dəf çalmağı əhd etmişəm", -dedi. Əleyhissəlatu vəssəlam: "Əhdini yerinə yetir!" -buyurdu".* (Ebu Davud, Eyman 27, (3315)

# Bitkilərdəki sərinləmə mexanizmi



Bitkilərin sərinləmə mexanizmi olmasaydı, onlar bir neçə saata günəşin altında məhv olardılar. Su mühəndisliyi kimi xarakterizə edilən bitkilər Allah'ın yaratmasındakı qüsursuzluğu göstərir.

Eyni yerdə olan bitki və daş günəş enerjisini bərabər miqdarda almalarına baxmayaraq, eyni dərəcədə isinməzlər. Günəşin altında qalan hər canlıda mütləq mənfi təsir meydana gəlir. Elə isə bitkilərin istidən minimum dərəcədə təsirlənmələrini təmin edən nədir? Bitkilər bunu necə bacarırlar? Yüksək temperaturda bütün yay boyu bitkilərin yarpaqlarının günəşin altında qovrulmasına baxmayaraq, niyə onlara heç nə olmur? Ayrıca, bitkilər öz tərkiblərindəki isinmədən başqa, kənardan da istilik alaraq dünyadakı temperatur tarazlığını təmin edirlər. Bu istilik tutma əməliyyatını apararkən özləri də bu istiyə məruz qalırlar. Bəs getdikcə artan istidən təsirlənmək əvəzinə, bitkilər çölün istiliyini almağa necə davam edirlər?

Daim günəşin altında olan bitkilər digər canlılara nisbətən suya daha çox ehtiyac duyurlar. Bitkilər yarpaqlarında yaranan tərləmə vasitəsilə də daim su itirirlər. Su itkisinin qarşısını almaq üçün yarpaqların günəşə tərəf olan üst hissələri kutikula adlanan su keçirməyən, qoruyucu təbəqə ilə örtülmüşdür. Bunun sayəsində yarpaqların üst səthindən su itkisinin qarşısı alınır.

Bəs alt hissələri? Bitkilərdə qaz mübadiləsini təmin edən xüsusi dəri hüceyrələri olan məsamələr yarpağın alt hissəsində olur. Məsamələrin açılıb-bağlanması bitkiyə ancaq karbondioksidi alıb oksigen verməyə imkan yaradır, su itkisinin isə qarşısını alır.

## Bitkilərin istilik paylama sistemi

Bitkilərdə iki cür istilik paylama sistemi var. Birincisi, əgər yarpağın istiliyi ətrafın istiliyindən çoxdursa, hava dövranı yarpaqdan xarici mühitə doğru olur. İsti hava soyuq havadan daha yüngül olduğundan, bu, onun yüksəlməsinə səbəb olur. Buna görə də, yarpaqların səthində isinən hava yüksəlir və səthdən ayrılır. Soyuq hava isə daha ağır olduğu üçün yarpağın səthinə doğru enir. Beləliklə, istilik azalır və yarpaq sərinlənir. Bu əməliyyat yarpağın səthinin istiliyi ətrafdakı istilikdən yüksək olduğu müddət boyu davam edir. Çox quru və isti hava şəraitində, yəni səhralarda da bu vəziyyət dəyişmir.

İkincisi, yarpaqlardan su buxarı verilərək tərləmə təmin edilir. Tərləmə sayəsində su buxarlanarkən bitki sərinlənir.

Paylama sistemləri bitkilərin yaşadıqları mühitin şəraitinə uyğun şəkildə nizamlanmışdır. Hər bitki ehtiyacı olan sistemə malikdir. Son dərəcə kompleks quruluşu olan bu sistemin paylanması təsadüfən reallaşa bilərmi? Bu sualın cavabını vermək üçün səhra bitkilərinə nəzər salaq. Səhradakı bitkilərin yarpaqları çox qalındır. Suyu buxarlandırmaqdan daha çox qoruma istiqamətində dizayn edilmişlər. Bu bitkilər üçün istilik paylama əməliyyatını buxarlanma ilə reallaşdırmaq ölümlə nəticələnə bilər. Çünki səhra mühitində itirilən suyun



kompensasiyası mümkün deyil. Gördüyümüz kimi, bu bitkilər istiliklərini hər iki yolla da paylaya bilərkən bu yollardan yalnız birini, üstəlik yaşamaları üçün yeganə etibarlı yolu seçirlər. Çünki səhra mühitinə uyğun dizayn edilmişlər. Bunu təsadüflərlə açıqlamaq isə mümkün deyil.

## Bitkilərdə sərinləmə mexanizmi

Bitkilərin sahib olduqları sərinləmə mexanizmləri olmasaydı, günəşin altında bir neçə saat belə onlar üçün ölümlə nəticələnərdi. Günorta saatlarında bir dəqiqə boyu alınan günəş işığı bir kvadrat santimetrlik yarpaq səthinin istiliyini 37oC-yə qədər yüksəldə bilər. Bitki hüceyrələri isə istilik 50-60oC-yə yüksəldikdə ölməyə başlayırlar. Yəni bitkinin ölməsi üçün onun günorta vaxtı 3 dəqiqə günəş işığı alması kifayətdir. Bitkilər öldürücü istilərdən məhz bu iki mexanizm sayəsində qorunurlar. Bitkilərin istilik paylamasında istifadə etdikləri buxarlanma hadisəsi, eyni zamanda, atmosferdəki su buxarı tarazlığı üçün də əhəmiyyətlidir. Çünki bitkilərdəki buxarlanma yüksək miqdarda suyun nizamlı olaraq atmosferə çatdırılmasını təmin edir. Bitkilərin fəaliyyətləri su mühəndisliyi kimi də xarakterizə edilə bilər. 1000 kvadrat metrlik meşədəki ağaclar havaya 7,5 ton su verə bilirlər. Bu xüsusiyyətlərilə bitkilər torpaqdakı suyu gövdələrindən keçirərək atmosferə çatdıran nəhəng su nasosları kimidirlər. Bu, çox əhəmiyyətli vəzifədir. Əgər bu xüsusiyyətləri olmasaydı, suyun yerlə göy arasındakı dövranı bugünkü kimi reallaşa bilməzdi, bu da yer üzündəki tarazlıqların pozulmasına səbəb olardı.

Xarici səthləri odun və quru maddə ilə əhatə olunmasına baxmayaraq, bitkilər gövdələrindən tonlarla su keçirirlər. Bu suyu torpaqdan alır və son texnologiya ilə işlətdikləri fabriklərində istifadə etdikdən sonra onun böyük hissəsini təmizlənmiş şəkildə təbiətə verirlər. Bunu edərkən aldıqları suyun bir qismini də qida istehsalında hidrogendən istifadə etmək məqsədilə parçalayırlar.

Bizim yarpaqlardakı tərləmə, ya da ağacların olduğu mühitdəki nəmlik kimi xarakterizə etdiyimiz hadisələr, əslində, yer üzündə həyatın davam etməsi baxımından əhəmiyyətlidir.

Bitkilərdə gördüyümüz bu əməliyyatların bir hissəsi belə götürülsə, həmin an sistem iflic olar və işləyə bilməz. Şübhəsiz ki, bu nizamı hazırlayan və nöqsansız şəkildə bitkilərə yerləşdirən Rəhman və Rəhim olan, hər cür yaratmağı bilən Allah'dır.

***O, Xaliq, yoxdan Yaradan, Surətverən Allah'dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 24)***

# YANLIŞ OLMAYAN DAVRANIŞLAR DEYİL, ƏN GÖZƏL DAVRANIŞLAR İDEALDIR

Gündəlik həyatda insanların bəzi davranışlarına baxdıqda yanlış olmadığını görürük. Ancaq buna ən gözəl davranış demək olmaz. Yanlış olmadığı üçün insanlar arasında çox diqqət çəkməz və ya narahatlıq yaratmaz. Əslində, bəzən nəzakətə, bəzən estetikaya, bəzən sevgi və hörmətə və bəzən də etikaya o qədər də uyğun olmaz. İnsan bir digərinin çatışmayan cəhətini bu şeydə özündən daha gözəl əxlaqa malik insanla qarşılaşdıqda anlayır. Bu şəkildə, iki insan eyni mühitdə olarkən danışıq və hərəkətlərindəki fərqlər daha aydın nəzərə çarpır. Məhz o zaman insan adı qoyulmayan, lakin yanlış olduğu hiss edilən davranışlar haqqında daha düzgün qənaətə gəlir.

İnsanlar gündəlik həyatlarında söhbət vaxtları və yaxın insanların davranışlarında bu nümunələrlə tez-tez qarşılaşırlar. Məsələn, bəzən birisi zarafat edir, lakin bu zarafat ordakı insanlarda istənilən təsir meydana gətirmir. Zarafat etməkdə məqsəd mühiti şənləndirmək, insanlar arasında yaxınlıq əmələ gətirməkdir. Ancaq bəzən deyilən sözlərlə bu məqsədə nail olmaq olmur. Əksinə, zarafatdakı eyham, seçilən yanlış söz, yanlış yerdə yersiz gülüş, zarafatın lazım olduğundan artıq uzadılması, zarafatla müəyyən şəxsin hədəf seçilməsi, qarşı tərəfi şövqləndirməyən, narahat edən üslubdan istifadə edilməsi o mühiti şənləndirmək əvəzinə narahatlıq meydana gətirir. Zarafat edən şəxs, həqiqətən, yaxşı niyyətli ola bilər. Dediyi sözləri ölçüb-biçmədiyinə, hərtərəfli düşünmədiyinə və ya istəmədən yanlış sözlər seçdiyinə görə belə vəziyyət yarana bilər. Ancaq bunları əvvəldən ölçüb-biçərək, təfərrüatını düşünərək hərəkət etmək gözəl əxlaqın tələbidir. İnsan ağlı, vicdanı ilə hərəkət edərək ən gözəl sözü və davranışları seçməklə məsuldur. Ona görə də insan bütün bunları düşünəcək əxlaqda olmalıdır.

Bu mövzuya dair nümunələri artıra bilərik. Məsələn, bir şeyə qonaq edilərkən ən nəzakətli sözləri seçib, qarşı tərəfi hörmət və sevgi ilə şövqləndirib, şişirdilmiş hərəkətlərdən çəkinib uyğun qaydada razı olduğunu bildirmək lazımdır. Bu məsələdə çatışmayan kiçik bir cəhət belə qarşı tərəfin qəlbini narahat edə bilər. Bəlkə də ortada yanlış görünən bir davranış olmaz. Lakin bu rəftardan doğan səmimi razılıq və bu narahatlıq müqayisə edildikdə davranışda çatışmazlıq olduğu üzə çıxar.

Bəzən də bir insana özündən daha təcrübəli, ağıllı, daha dərin düşünən şəxs məsləhət verir. Burada da ən gözəl rəftar həmin şəxsin Allah rizası üçün verdiyi məsləhətə eyni şəkildə Allah rizası üçün ən gözəl söz və davranışla qarşılıq verməkdir. Tənqid edən şəxs qarşısındakı insanın nəfsini nəzərə alaraq onun daha yaxşı, daha mükəmməl olması üçün diqqətlə və düşünərək danışar. İnsan belə gözəl əxlaqa ən az eyni tərzdə, hətta daha gözəl şəkildə qarşılıq verməlidir. Qarşı tərəfin də sözlərini

qəbul etdiyini, dəstəklədiyini, deyilənlərə könüldən inandığını, daxilən qəzəblənmədiyini, qarşı tərəfə haqq verdiyini, heç bir narahatlıq hiss etmədiyini ən yaxşı tərzdə vurğulamalıdır.

Bunun əvəzinə, sadəcə bir neçə qısa cümlə ilə qarşılıq verərsə, razı olub-olmadığını bildirməzsə, narazı ifadə ilə baxıb səs tonunu dəyişərsə və qarşı tərəfə razı olduğuna dair açıqlama verməzsə, əlbəttə, bunun mənası çox fərqli olar. Əslində, bu insan yanlış söz deməmiş, etiraz etməmiş, tərs üslubdan istifadə etməmişdir. Ona görə, yanlış bir şey etməmiş kimi görünə bilər. Ancaq daha incə vicdan anlayışı ilə baxdıqda belə vəziyyətdə həmin rəftarın ən gözəl davranış olmadığı aydın olur. Əvvəlki sətirlərdə deyildiyi kimi, əgər bu insan qarşı tərəfə olan hörmətini, sevgisini, razılığını ən gözəl söz və davranışlarla ifadə edərsə, əlbəttə, bu, Quran əxlaqına ən uyğun davranış olar.

Bir insana sevgi ifadə edən söz dedikdə və iltifat etdikdə qarşı tərəf də eyni şəkildə hərtərəfli düşünərək ən gözəl şəkildə qarşılıq verməlidir. Bu insan ona iltifat edənə sadəcə: "Təşəkkür edirəm", -deyərək keçə bilər. Əlbəttə, bu da gözəl sözdür və yanlış görünmür. Əslində isə, kafi deyil. Bir insanın qarşı tərəfə sevgi ilə yanaşmasında, iltifat edib gözəl söz söyləməsində məqsəd, Allah rizası üçün qarşılıqlı sevgini, hörmət və yaxınlığı artırmaq, gözəl mühit təmin etmək, sevindirmək və şənləndirməkdir. İnsanın bu məqsədlə göstərdiyi əxlaqa ən az qarşı tərəf qədər, hətta daha artıq iltifat edib gözəl sözlərlə qarşılıq verməsi daha gözəl əxlaq anlayışına sahib olduğunu göstərir.

Bütün bu nümunələr mühüm həqiqəti göstərir: gözəl əxlaqı incə xüsusiyyətlərdə axtarmaq lazımdır. Bir insan ümumi mənada, həqiqətən, möhkəm xarakterə malik ola bilər və etibarlı, xoşniyyətli və çalışqan ola bilər. Ancaq xüsusiyyətlərdəki bu çatışmazlıqlar da olduqca vacibdir. Çünki bunlar insanı könüldən sevdirir və etibarlı edir.

Hər məsələdə olduğu kimi, insanın adı qoyulmayan və yanlış hesab edilməyən, ancaq qəlbən narahatlıq verən bu hərəkətləri müəyyən edərkən, əlbəttə, Quran ayələrini və vicdanını əsas götürməlidir. Ən gözəl davranışlar ətrafdakı insanlarda dərin sevgi, mərhəmət, mehribanlıq və razılıq meydana gətirir. Orta dərəcəli gözəl davranışlar isə qarşı tərəfdə ancaq orta dərəcədə təsir meydana gətirir.

Allah'dan qorxan insan Allah'ın ən çox razı olduğu əxlaqla davranmalıdır. Allah rizasının ən çoxu insanın bütün davranışlarında bu incəliklərə diqqət etməsindədir. Quranda Allah möminlərə bu əxlaqla bağlı belə tövsiyə edir:

***Qullarıma de ki, ən gözəl sözləri söyləsinlər. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.* (İsra surəsi, 53)**



# Elektroşokla ov ovlayan ilan balıqları

Boyları 2.75 metrə çatan elektrikli ilan balıqları (Electrophorus electricus) Amazon bölgəsində yaşayırlar. Elektrik hasil etmə qabiliyyətindən həm müdafiə, həm də hücum vasitəsi kimi istifadə edirlər. Bu balıqlar bədənlərində hasil etdikləri elektriklə ovlarını hərəkətsiz hala salır və düşmənlərini şok edib öldürürlər.

Balıqdan qaynaqlanan elektrik şoku 2 metr uzaqlıqdakı böyük heyvanı belə öldürəcək şiddətindədir. Balığın elektrik hasil etmə mexanizmi saniyənin 1000-də 2 və ya 3-ü qədər qısa müddətdə işə düşür. Bütün elektrikli balıqlar arasında ən öldürücü balıq olan ilan balığında elektrik cərəyanı 650-yə çatır. Bu qədər yüksək voltaj televizoru işə salmaq üçün istifadə edilən elektrikdən də artıqdır və insanı öldürə bilər. İlan balığının bəzən boşaltdığı 800 voltluq elektrik şoku isə atı öldürə bilir.

Elektrik ilan balığının bədənindəki yan əzələlərdə yerləşmiş orqanları tərəfindən hasil edilir. Elektrikli ilan balığının üç cüt elektrik orqanı var. Bu orqanlar balığın çəkisinin böyük hissəsini və boyunun 4/5-nü təşkil edir. Elektrik orqanı çoxlu sayda yastı hüceyrənin ardıcıl, paralel bağlanmasından əmələ gəlir. Elektrikli ilan balığının quyruğunda 70 sütun şəklində düzülmüş, 10.000 kiçik elektrik orqanı yerləşir.

Bu hüceyrələrin hamısının eyni anda hərəkətə salaraq güclü elektrik axını əmələ gətirməsi üçün hüceyrələri hərəkətə keçirən sinir impulsları eyni zamanda ötürülməlidir. Minlərlə hüceyrənin müəyyən canlını hədəfə alaraq eyni anda elektriki boşaltması isə çox xüsusi, təəccüblü haldır. Bu hüceyrələrin hər biri digərindən fərqli zamanda elektriklərini boşaltsaydılar, ova təsir edəcək qədər güclü elektrik axını olmazdı. Ancaq orqanizmindəki bu mükəmməl sistemdən ilan balığının xəbəri belə yoxdur və Allah'ın istəyi ilə bundan ən təsirli şəkildə istifadə edir.

Elektrikli ilan balıqlarının quyruq hissəsindəki elektrik orqanı eyni zamanda zəif elektrik impulsları hasil edərək duyğu orqanı kimi də çalışır. Balıq elektrik yükünü quyruğundakı minlərlə məsamədən impulslar şəklində yayır. Bu impulslar balığı əhatə edən suda ani elektrik sahəsi əmələ gətirir. Balığın yaxınlığındakı cisimlər bu sahənin formasını pozur. Balıq bu pozulmaları növünə görə şərh edərək ətrafı haqqında məlumat əldə edir. Balığın orqanizmində ətrafa müntəzəm elektrik impulsları yayan, bir tərəfdən də bu impulsların



toqquşduğu cisimləri şərh edən bir növ üzvi radar var. İnsanların istifadə etdiyi radarların nə qədər mürəkkəb cihaz olduğunu nəzərə alsaq, balığın orqanizmində yerləşən və süni radarlardan qat-qat mürəkkəb olan bu sistemin möhtəşəmliyini daha yaxşı dərk edərik.

Elm adamları elektrikli ilan balığının bu müdafiə mexanizmini təqlid etməyə və dövrümüzdə bu balığınkına bənzər elektrikli müdafiə silahları icad etməyə çalışır. Əlbəttə, elektrik impulsları bir cismin yerini müəyyən etmək məqsədilə və ya xəbərləşmə üçün istifadə edilə bilər. Ancaq bunun üçün dərin elmi biliyə və qabaqcıl texnologiyaya ehtiyac var. Belə ki, dövrümüzdə belə bu səviyyəyə çatmış ölkələrin sayı çox azdır. Halbuki, bəzi elektrikli balıqların bədənlərində ətrafa daima elektrik impulsları yayan, bir tərəfdən də bu impulsların toqquşduğu cisimləri şərh edən üzvi radar var. İlan balıqlarındakı bu üstün texnologiyanın mənbəyini təsadüfi amillərlə açıqlamağa çalışmaq həm elmi cəhətdən, həm də ağıl baxımından məntiqsizdir.

Darvin "təkamül mexanizmi" kimi irəli sürdüyü təbii seçmədən ümidlərini açıqlayarkən bir dəfə Amazonda yaşayan bəzi balıqların müdafiə üçün necə elektrik hasil etdiyinə belə toxunmuşdur:

Bir çox balıq şok meydana gətirməyəcək qədər zəif elektrik hasil edir. Əvvəlcə, bu zəif elektrik axınından palçıqlı dərin sularda bir növ radar kimi yolunu tapmaq üçün istifadə etmişdir. Böyük ehtimalla, bəzi balıqlar bu elektrik hasilatını təkmilləşdirərək müdafiə məqsədilə istifadə etməyə başlamışdır və təbii seçmə elektrik hasilatını gücləndirməyə xidmət etmişdir.

Darvinin təxəyyül məhsulu olan bu iddiasının reallaşması, əlbəttə, qeyri-mümkündür. Bir balığın əvvəlcə təsadüfən əmələ gəlməsi, bu balığın daha sonra yolunu tapmaq üçün radar kimi istifadə edəcəyi elektrik hasil etməyə qərar verməsi, eyni zamanda, bədənindəki bu elektriki özünə zərər verməyəcək qədər zəif olmasını tənzimləməsi ehtimaldan belə uzaqdır. Məsələn, Cənubi Afrika ilan balıqlarının hasil etdiyi 800 voltluq elektrik axını bir atı öldürə bilər, ancaq özlərinə heç bir zərər vermir. Darvinistlərin hekayələrində isə bu həqiqətlər təhrif edilir və canlıların öz-özlərinə tələbatlarını müəyyən edib bu yöndə orqanizmlərində dəyişiklik etdiklərindən bəhs edilir ki, bu, böyük yalandır.



XIX əsrdə kəşf edilmiş elektrik illərdir təbiətdə mövcud olan enerji mənbəyidir. İnsanın uzun səyləri nəticəsində əldə etdiyi bu mühüm nemət Allah'ın yaratdığı bir çox canlıda yarandıqları ilk andan bəri mövcuddur. Elektrikli ilan balıqları orqanizmlərindəki bu xüsusi sistemlər vasitəsilə dövrümüzün ən mühüm enerji mənbələrindən biri olan elektriki ilk yaradıldıqları andan etibarən heç bir texniki sistem və professional laboratoriya olmadan, üstəlik, çox güclü miqdarda hasil edirlər. Bu möcüzəvi xüsusiyyət həyatın mənşəyini təsadüflərlə izah edən təkamül nəzəriyyəsinin süqutunun və yaradılış gerçəyinin dəlilidir. Allah'ın üstün elminin təcəllisi olan bu canlılardan biri də hasil etdikləri elektriki tənzimləyərək özünümüdafiə və bir çox başqa məqsəd üçün istifadə edən elektrikli ilan balıqlarıdır. Balığın bu qədər güclü enerji hasil etməsi onu yaradan uca Allah'ın sonsuz elminin dəlillərindən birini göstərir. Allah Quranda belə buyurur:

***Yenilməz qüvvət, hikmət sahibi olan Allah sənə və səndən əvvəlkilərə belə vəhy edir! Göylərdə və yerdə nə varsa, Onundur! O, ucadır, uludur! (Şura surəsi, 3-4)***





## Minlərlə hüceyrə eyni anda elektriki necə boşaldır?

Elektrikli balıqlar hər biri çox az miqdarda enerji hasil edən hüceyrələrin birlikdə hərəkətə keçməsiylə 500-900 volta qədər elektrik əldə edib bundan düşmənlərinə qarşı istifadə edirlər. Ancaq bu hüceyrələr eyni anda elektriki boşaltdıqda balıq üçün təsirli silah əmələ gətirirlər. Elektrik hüceyrələrinin hər biri müxtəlif vaxtlarda elektriklərini boşaltsaydılar, bu sistem işə yaramaz, balıq üçün müdafiə təşkil etməzdilər. Bəs bu sistem qüsursuz ahənglə necə işləyir?



Elektrik hasil edən orqanların əksəriyyəti çox uzundur, ona görə onurğada hərəkət əmri ötürən neyronlarla elektrik orqanı hüceyrələri arasındakı məsafə dəyişkəndir, uzun və ya qısadır. Lakin bu məsafə elektrikin eyni anda boşaldılması baxımından çox vacibdir. Çünki sinir impulsları müəyyən sürətlə - saniyədə 10-40 metr – göndərilir. Buna görə, onurğadakı motor neyronların hamısı eyni anda sinir impulsu göndərsə də, məsafənin dəyişkənliyinə görə bu impulslar elektrik hüceyrələrinə eyni anda çatmır.

Burada daha uzaqda olanların yaxında olan hüceyrələrə nisbətən gec fəaliyyətə keçməsi düşünülə bilər. Ancaq fərqli balıq növlərində iki müxtəlif strategiyadan istifadə edilir və belə uyğunsuzluğun qarşısı alınır. Birinci metod məsafələrin bərabərləşdirilməsidir. Yəni beyindən əmr daşıyan sinir hüceyrələrinin aksonları (çıxıntıları) yaxınlıqdakı elektrik hüceyrəsinə dolayı yolla, uzaqdakı elektrik hüceyrəsinə birbaşa gedir. Digər metod isə göndəriləcək hüceyrənin uzaqlığına görə aksonların göndərmə sürətlərinin dəyişdirilməsidir. Buna görə, qısa aksonlar daha yavaş, uzun aksonlar daha sürətlə xəbər ötürürlər. Beləliklə, elektrik orqanındakı on minlərlə hüceyrə "elektrik boşalt" əmrini eyni anda alır.



Diqqət etsək, burada şüuru, ağlı olmayan atomların birləşməsiylə əmələ gələn hüceyrələrdən bəhs edilir. Strategiya izləyən, məqsədə çatmaq üçün metodlar tapan, qərar verib həyata keçirən, qüsursuz ahənglə mütəşəkkil işləyən şüursuz hüceyrələrin özləri deyil. Balığın isə orqanizmində baş verən bu qeyri-adi prosesdən xəbəri belə yoxdur. Burada çox səthi izah edilən bu kompleks sistem ancaq yüksək ağılın və iradənin nəzarəti ilə baş verir. Bu üstün ağıl və iradənin sahibi isə aləmlərin Rəbbi, hər şeyə qadir olan, hər şeyin Hakimi uca Rəbbimizdir. Bu həqiqət "Hud" surəsinin 56-cı ayəsində "***... Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın...***" şəklində bildirilir.



# Bir ayə, bir açıqlama

***...Yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz! (Əraf surəsi, 31)***

Lazımsız, məqsədsiz və boş yerə mal, zaman və buna bənzər şeyləri sərf etməyə və bədxərcliyə “israf” deyilir. İsraf Allah’ın Quranda haram etdiyi çirkin davranışdır.

Lakin Quran əxlaqından uzaq yaşayan bir çox insan hədsiz pul xərcləyib sonra bununla öyünməyi prestij mənbəyi hesab edir. Bu insanların davranışı Quranda belə bildirilir:

***O deyir: “Mən çoxlu var-dövlət sərf etmişəm!” O, heç kəsin onu görmədiyinimi zənn edir? (Bələd surəsi, 6-7)***

Bu ayədə bildirildiyi kimi, qəflət içində olan insanların etinasız yanaşdığı bir həqiqət var. Uca Rəbbimiz dünya həyatında insana öz bədənindən nəfəs aldığı havaya, yediyi yeməkdən istifadə etdiyi texnoloji alətlərə qədər sonsuz nemətlər nəsib etmişdir. Göydə və yerdə olanları, görünən və görünməyən nemət və ruzilərini onun istifadəsinə vermişdir. İnsan isə bu nemətləri Allah rizası üçün ölçülü şəkildə istifadə etməli və israfdan çəkinməlidir.

## Allah israf edənləri sevməz

Allah Quranda israfı qullarına haram etmiş və israf edənləri sevmədiyini bildirmişdir:

*Ey Adəm oğulları! Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz! (Əraf surəsi, 31)*

Ayədə israf edənlər “şeytanın qardaşı” adlandırılır:

***…Sağa-sola səpələmə! Həqiqətən, sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur! (İsra surəsi, 26-27)***

Şeytanı özlərinə ən böyük düşmən hesab edən möminlər bu ayəyə əsasən, israf etməməyə xüsusi diqqət etməlidirlər.

Möminlər əllərindəki hər şeyin onlara Allah tərəfindən verilmiş nemət olduğunu, heç birinin əsl sahibləri olmadıqlarını unutmazlar.

## Qurana görə nələr israfdır?

İsraf dedikdə insanın ağlına əvvəlcə mal, mülk və ya pul israfı gəlir. Halbuki, israf təkcə mal ilə olmur. Allah’ın verdiyi hər nemətin Allah rizasını güdmədən boş yerə sərf edilməsi israfdır. Allah insanların onlara verilən nemətləri necə dəyərləndirdikləri ilə bağlı axirətdə sorğu-sual ediləcəklərini ***“Sonra da həmin gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız! (Təkasur surəsi, 8)”*** ayəsilə xəbər verilmişdir.

## Zaman israfı

Zaman Allah'ın insanlara verdiyi çox böyük nemətdir. İnsanların hədəfi dünya həyatında onlara verilən möhlət ərzində Allah'ı ən çox razı edən əməllər etmək və axirətdəki sonsuz cənnət nemətlərinə qovuşmaqdır. Bunun üçün Allah rizasının ən çoxunu nəzərə alıb dəyərləndirilməli mühüm nemətlərdən biri zamandır. Əgər insan vaxtını Allah rizası üçün işlər görmək əvəzinə ağlını və qəlbini Allah'ı anmaqdan uzaq tutub boş işlərlə keçirirsə, bu böyük neməti israf etmiş olur. Buna görə, zaman kimi nemət israf edilməməli, hər saniyəsi Allah rizasına uyğun düşüncə və davranışlarla dəyərləndirilməlidir.

## Bilik israfı

Allah bəzi insanlara müəyyən sahələrdə bacarıq vermiş və onlara dərgahından bilik üstünlüyü bəxş etmişdir. Məsələn, Allah lütf olaraq bəzilərinə xarici dil öyrənmə imkanı vermiş, bəzilərini kompyuter və ya mühəndislik kimi texniki sahələrdə bilik sahibi etmiş, bəzilərinə isə geniş dünyagörüşü bəxş etmişdir. İnsanlar onlara verilən bu nemətlərdən və bunları Allah rizasına uyğun olaraq Onun varlığının və üstün gücünün insanlara təbliğdə sərf etməkdən məsuldurlar. Əks təqdirdə, sahib olduqları biliyi israf edərlər.

## Sağlamlığın israfı

Sağlamlıq da Allah'ın insanlara bəxş etdiyi böyük nemətdir. İnsan Allah'ın dünya həyatında ona əmanət kimi verdiyi bədənə ən yaxşı şəkildə qulluq etməklə və Allah rizası üçün ömrünü keçirməklə məsuldur. Əlbəttə, sağlamlığı verən Allah'dır. Ancaq insan bu bədəni sağlam saxlamaq üçün təmiz və sağlamlığa faydalı yeməklər yeyərək səbəblərə sarılır, bu, onun feili duasıdır. Bədəninə lazımınca qulluq etməmək, səhhətinə zərər verən qida və içkilərdən istifadə etmək bir növ sağlamlığın israfıdır.

## Yemək-içməyin israfı

Dünyadakı mövcud qida mənbələri hər insanın gündəlik ehtiyacını təmin edəcək səviyyədədir. Ancaq buna baxmayaraq, hələ də dünyada 800 milyondan çox insan aclıqdan əziyyət çəkir.

Bu gün dünyanın bəzi ölkələrində şəxsi mənfəət üçün və məhsulun qiymətini artırmaq məqsədilə tonlarla meyvə-tərəvəz atılıb israf edilir. Dünyada israf edilən bu məhsullara möhtac olan və aclıqdan əziyyət çəkən insanları isə heç nəzərə almırlar. Allah mövcud mənbələrdən ağılla, səmərəli şəkildə istifadə etməyi, yaxşı planlaşdırmağı və verilən nemətlərin qədrini bilməyi buyurmuşdur. Kafelərdə, evlərdə qablarla yemək, kilolarla çörək, meyvə-tərəvəz zibilə atılır. Halbuki, Allah hər cür böyük-kiçik israfı haram etmişdir. Ona görə, insanlar düşüncəsizliklə "bu xarab olub", "bunlardan istifadə edə bilmərik" kimi sözlərlə əllərindəkini atmamalı, bütün nemətləri xarab olmadan dəyərləndirməyin yollarını axtarmalıdırlar. Ancaq bu şəkildə nemətin qədrini bilmək olar. Əks təqdirdə, böyük bərəkətsizlik və nemətlərə nankorluq etmiş olarlar.

## Enerji mənbələrinin israfı

İnsanlar yer üzündəki su, elektrik, təbii qaz kimi enerji mənbələrindən istifadə edərkən də israfdan çəkinməlidirlər. Boş yerə axıdılan su, kimsənin olmadığı mühitdə yandırılan işıq və ya ehtiyacdan artıq istifadə edilən təbii qaz israfdır. Buna bağlı olaraq edilən hər artıq xərc Allah rizası üçün görüləcək faydalı işə ayrılacaq pulun azalması deməkdir. Buna görə, bu cür enerji mənbələrindən istifadə edərkən israfdan çəkinmək çox vacibdir.

## İsrafın ölçüsü nədir?

Rəbbimiz israf etməmək üçün lazımi ölçünü Quranda belə bildirmişdir:

***Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar. (Furqan surəsi, 67)***

İnananlar bu dünyada Allah'ın nemətlərindən yararlanıb zövq aldıqları kimi, onlara verilənləri Allah rizası üçün xərcləməkdən də böyük zövq alırlar.



# Hisslərimizi istiqamətləndirən nahiyə: "AMİQDALA"

Uca Allah insanların ruhundakı quruluşu fərqli yaratmışdır. Hər insanın həyəcanlandığı hadisələr bir-birindən fərqlənir. Elmin tək sahibi olan Allah hər insanın ruhunda yaratdığı fərqli duyğulara beynimizdəki amiqdala adlanan nayihəni səbəb etmişdir.

Beynimizdəki amiqdala nayihəsi qorxu, güvən və ictimai münasibət qurma kimi davranışlara nəzarət edir. Amiqdala insanlarda limbik halqanın altında, gicgah tərəfdə olan və bir-birləri ilə əlaqəli strukturlardan ibarət badamşəkilli bir kütlədir. Beyinin hər yarımkürəsində bir amiqdala yerləşir. Bu nayihə ətrafımızdakı siqnalları tutaraq bir an içində nəyə və necə reaksiya verib-verməyəcəyimizi təyin etməkdə bizə kömək edir.

## Beynimizin amiqdala nayihəsi hissi reaksiyaların qaynağıdır

Uca Allah xarici dünyaya aid beynimizə gələn məlumatların 80%-ni gözümüz vasitəsilə reallaşdırır. Linza tərəfindən tor qişada fokuslanan görüntü elektrik siqnallarına çevrildikdən sonra saniyənin mində biri kimi bir zamanda optik sinirlər vasitəsilə beyinə çatdırılır. Hər iki gözdən ayrı-ayrı əldə edilən siqnallar cismə aid bütün xüsusiyyətləri özündə daşıyır. Beyin də iki gözdən gələn görüntüləri vahid görüntü halında birləşdirir. Obyektin formasını və rəngini ayırd edir, nə qədər uzaqda olduğunu müəyyən edir. Qısacası, obyektləri görən göz deyil, beyindir. Gözlərdən gələn elektrik siqnalları beyinin



arxasında olan görmə mərkəzinə çatır. Bu mərkəz 2.5 millimetr qalınlığında və bir neçə santimetr böyüklüyündədir. Altı təbəqədən və yüz milyon neyrondan (sinir hüceyrəsi) ibarətdir. Xəbərdarlıq əvvəl dördüncü təbəqəyə gəlir. Burada analiz edildikdən sonra digər təbəqələrə dağılır. Bu mərkəzdə hər neyron minə qədər neyrondan xəbərdarlıq alır və minə qədər neyrona xəbərdarlıq göndərir.

## Müxtəlif davranışların səbəbi beyindəki amiqdala nayihəsi ola bilərmi?

Elmi araşdırmalar beynimizdəki amiqdala nayihəsinin fərdi davranışlara malik olduğunu müəyyən etmişdir. Bir təhlükəyə məruz qaldığımız zaman "Bu, mənim nifrət etdiyim bir şeydirmi? Bu, mənə zərər verərmi? Bu, mənim qorxduğum bir şeydirmi?" kimi suallarla beyin xəbərdar edilir və əgər sualların cavabı "bəli"dirsə, amiqdala həyəcan şəklində həmin anda reaksiya verir və beyinin digər qismlərinə "böhran var" mesajını yollayır. Amiqdalanın beyinlə zəngin ünsiyyət şəbəkəsi mövcuddur. Təcili vəziyyətdə beyinin böyük hissəsinə nəzarət edir və onu istiqamətləndirir. Hissi reaksiyalarımızı amiqdala nayihəsinin idarə etdiyinin məlum olduğuna baxmayaraq, amiqdalanın bütün funksiyaları hələ də tam öyrənilməyib. Elm adamları bu suallara hələ də cavab verə bilmirlər:

- Beyin hissi görüntünü necə ayırd edir və amiqdalaya göndərməli olduğunu haradan bilir?

- Amiqdalanın bütün insanlarda demək olar ki, eyni quruluşda olmasına baxmayaraq, insanların qəbul etdikləri risklər, qorxular, ictimai seçimlər niyə fərqlidir?

Elm adamları bu dəyişiklikləri neurod2 adlı genlə əlaqələndirirlər. Çünki Qvineya donuzları üzərində aparılan təcrübələr nəticəsində məlum olmuşdur ki, beyinin amiqdala nahiyəsindəki geni azaltdıqda, Qvineya donuzlarının qorxu hissləri azalmış və onlar böyük risklərə getmişlər. İnsanda da bu gen var. Lakin bu zaman aşağıdakı suallara cavab vermək lazımdır:

Risk edib etməməyimizi, hobbilərimiz və zövqlərimizi bu gen və bu genin meydana gətirdiyi genetik şifrə təyin edə bilərmi? Başqa sözlə desək, xarakterimizi və hissi seçimlərimizi beyinin içindəki kiçik bir ət parçası təyin edə bilərmi? Əlbəttə ki, bu sualların cavabı "xeyr"dir. Elə isə duyğularımızı müəyyən edən nədir?

## Fərdi davranışlarımızın qaynağı amiqdala deyil, ruhdur

Duyğularımız elektrik siqnalları vasitəsilə meydana gəlir. Bəs bu siqnalları şərh edib, onları dostumuza, gözəl bir çiçəyə, ucsuz-bucaqsız bir mənzərəyə, anamıza, küçədə oynayan uşaqlara, sevincə, yoldaşlar arasında seçim etməyə çevirən beynimiz və beynimizdəki amiqdala nahiyəsidirmi?

Texniki mənada siqnalların beyində şərh olunduğu doğrudur. Materialistlər bunu əsas götürərək, beyinin içindəki neyronlardan ibarət olduğumuzu və yaşadığımız dünyanın bu neyronların bir-birləri ilə olan ünsiyyətinin bir



nəticəsi olduğunu iddia edirlər. DNT-ni kəşf edən materialist təkamülçü fizik Fransis Krikin sözü ilə desək, düşünən, gülən, sevinən, qarşısındakı insanı tanıyan, şərh edən varlığın bir neyron yığını olduğunu müdafiə edirlər. (http://www.bbc.co.uk/radio4/reith2003/lecture1.shtml)

Bir materialist üçün insanın necə düşündüyü və hisslərdən necə məna çıxardığı əhəmiyyətli deyil. Əhəmiyyətli deyil, çünki bunları izah edə bilmir. Ona görə, hər şey maddi mənada araşdırılmalıdır. Halbuki, bu, insanları Allah inancından uzaqlaşdırmaq üçün ortaya atılmış böyük yalandır. Çünki insanın sahib olduğu şüurun sahibi beyin deyil, ruhdur. Beyinin içindəki görüntünü: "Görürəm", - deyən, beyinin içindəki səsləri: "Eşidirəm", - deyən öz varlığının şüurunda olan şüur sahibi varlıq Allahın insana verdiyi ruhdur. Materialist zehniyyət də bu həqiqətin bilinməsindən, bu həqiqətin dərk edilməsindən çəkinir. Materialist elm adamlarının "tətqiq edilə bilməyən" iddialarının əsas səbəbi budur. Ruhun mütləq varlığı, ruhu insana verənin Allah olduğu onların bütün materialist inanclarını və iddialarını alt-üst edir. Nə qədər "izahsız" damğası vurmağa çalışsalar da, şüurun qaynağının ruh olduğu, insana aid həqiqətin, "Mən mənəm", - deyən varlığın ruhuna aid olduğu müzakirə edilməz həqiqətdir. Allah Quranda insanı əvvəl bədənlə yaratdığını, sonra da ona ruhundan üfürdüyünü bildirmişdir:

***Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, səs çıxaran quru gildən insan yaradacağam! Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 28 - 29)***

## Amiqdala nayihəsi olmasaydı, nə olardı?

Amiqdalası alınan bir insan hadisələrin hissi mənasını qiymətləndirməkdə çətinlik çəkir. Bu adam insanlarla birlikdə yaşamağı sevən, çox yaxşı danışan insan olduğu halda, yaxın yoldaşlarına qarşı laqeyd olan, hətta ata və anasını tanımayan, hər kəsdən uzaq, tək yaşamağı seçən insana çevrilir. Bu insanda bütün hisslərin yerini böyük səssizlik və hissizlik tutur.

Autizm xəstəliyinin səbəblərindən biri bu insanların amiqdalalarında daha az sinir hüceyrəsinin olmasıdır.

Beyinin dərinliyində yerləşən və badam şəklində olan amiqdala başqa insanların hisslərini anlamağımızda kömək edən nayihədir. Araşdırmalar nayihənin xüsusilə autizmdəki qorxu hissində əhəmiyyətli rol oynadığını göstərir. Ancaq elm adamları bu nayihənin müxtəlif zehni vəziyyətlərlə də əlaqəli olduğunu düşünürlər.

Məsələn, ictimai münasibətlərdən uzaqlaşmaq və başqalarının hisslərini anlamamaq kimi xüsusiyyətləri olan autizm xəstəliyi insanların amiqdalalarında normadan az sinir hüceyrəsi olduğu zaman ortaya çıxır. Ancaq yağ, su və zülalların meydana gətirdiyi bir quruluşun insanın mənliyini meydana gətirməsi, insanı dərk edən, düşünən, sevinən, reaksiya verən, qürurlanan, həyəcanlanan, qorxan, ictimai münasibətlər quran bir varlıq etməsi, şübhəsiz ki, mümkün deyil. Gözə ehtiyac duymadan görə bilən, qulağa ehtiyac duymadan eşidə bilən, beyinə ehtiyac duymadan düşünə bilən insanın ruhudur.

# Bunları Bilirdinizmi?



## Yer kürəsinin məhz lazımi ölçüdə olduğunu...

Yerlə Günəş arasındakı məsafə, Yerin fırlanma sürəti və forması qədər ölçüsü də vacibdir. Yer kürəsini kütləsinin sadəcə 8%-i böyüklükdə olan Merkuri və ya Yerdən 318 dəfə artıq kütləyə malik Yupiterlə müqayisə etdikdə planetlərin çox fərqli ölçülərdə olduğunu görürük. Bu qədər müxtəlif ölçülərdəki planetlər arasında Yer kürəsinin ölçüsü təsadüfən müəyyən edilməyib.

Yer kürəsinin xüsusiyyətlərini təhlil etdikdə yaşadığımız bu göy cismini Allah'ın məhz lazımi böyüklükdə yaratdığını görürük. Amerikalı geoloqlar Press və Siver Yerin bu uyğunluğu haqqında belə məlumat verirlər:



Yer kürəsi məhz lazımi böyüklükdədir. Daha kiçik olsaydı, yerin cazibə qüvvəsi çox zəifləyər və atmosferi ətrafında saxlaya bilməzdi, daha böyük olsaydı, bu dəfə də yerin cazibə qüvvəsi çox artar və bəzi zəhərli qazları da saxlayaraq atmosferə öldürücü xüsusiyyət qazandırardı... *(F. Press, R. Siever, Earth, New York: W. H. Freeman, 1986, səh. 4)*

## Quş tüklərinin xüsusiyyətlərini...

Quşun qarın nahiyəsindəki tüklərlə qanad və quyruq tükləri üstün yaradılışına görə bir-birindən fərqli xüsusiyyətlərə malikdir. Böyük tüklərdən əmələ gələn quyruq tükləri sükan və əyləc funksiyasını yerinə yetirir. Qanad tükləri isə qanad çırpma zamanı açılaraq qanadın səthini genişləndirir və qaldırma qüvvəsini artırır. Quş qanadını aşağıya doğru çırparkən tüklər bir-birlərinə yaxınlaşaraq aralarından havanın sızmasının qarşısı alınır. Qanadlar yuxarıya doğru qalxarkən tüklər tamamilə açılaraq aralarından havanın keçməsi üçün əlverişli forma alırlar. Quşlar uçma qabiliyyətlərini qorumaq üçün müəyyən dövrlərdə tüklərini tökürlər. Köhnəlmiş və ya didilmiş tüklər funksiyalarını tam yerinə yetirə bilmədiyinə görə, sürətlə yenilənirlər.

# AXIRZAMANIN ƏN BÖYÜK PROBLEMİ: SEVGİSİZLİK

Pislik, haqsızlıq, kədər, bədbinlik, sıxıntı, tənhalıq, qorxu, stress, inamsızlıq, vicdansızlıq, narahatçılıq, qəzəb, qısqanclıq, kin, narkomaniya, əxlaqsızlıq, qumar, fahişəlik, aclıq, yoxsulluq, oğurluq, dava-dalaş, düşmənçilik, cinayət, müharibə, qarşıdurma və zülm... Bütün bunlar, demək olar ki, hər gün qəzetlərdə və televiziyada rast gəlinən, gündəlik həyatda qarşılaşdığımız problemlərdir.

İnsanların və xalqların xilas olmaq istədiyi, hər sahədə mübarizə apardığı bu cür pisliklər, qarışıqlıq dünyada əsrlərdən bəri hakimdir. Bunun üçün qədim Yunanıstana və ya Böyük Roma İmperiyasına, Çar Rusiyasına və ya iki böyük dünya müharibəsinə, böyük ictimai hadisələrə səhnə olan XX əsrə nəzər salmaq kifayətdir. Ancaq hansı əsrə baxsaq, dünyanın hansı guşəsinə getsək, bu mənzərə dəyişmir. Çünki keçmişdə olduğu kimi, dövrümüzdə də bu cür pisliklərin mənbəyi dünyadakı ən böyük problem olan sevgisizlikdir.

İslam "silm" və "salam" kökündən törəmiş sözdür. "Silm" sülh, təhlükəsizlik, əmin-amanlıq və sevgi, "salam" isə xoşbəxtlik, salamatlıq və təhlükəsizlik mənalarını verir. Odur ki, müsəlman sülhün tərəfdarı kimi qan axıtmağa, düşmənçiliyə və qəddarlığa qarşı sevgini, məhəbbəti istəyən ruha malik şəxsdir. Bütün insanları və canlıları Allah'ın yaratdığını bildiyinə görə, Allah'ın təcəllisi kimi görür və Allah'a olan sevgisini təcəllilərinə də yönəldir. Rəbbimiz Quranda sevginin əhəmiyyətinə bir çox ayədə diqqət çəkmiş və müsəlmanların bir-birlərinə və bütün canlılara sevgiylə yanaşmalarını belə əmr etmişdir:

***Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl Allah'a, axirət gününə, mələklərə, kitaba, peyğəmbərlərə iman gətirən, sevdiyi malını qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbir edənlərdir. Onlar doğru olanlardır. Müttəqi olanlar da onlardır!*** *(Bəqərə surəsi, 177)*

### Sevgisizlik dünyanı məhv edir

Axırzamanın ən mühüm problemlərindən olan sevgisizlik və inamsızlıq dövrümüzdə insanların çatışmayan cəhətidir. Bu gün dünyada baş verən müharibələrin, qırğınların, yardımlaşmadan qaçmağın, qısaca desək, dünyadakı əxlaqi pozuntunun səbəbi budur. İnsanlar dünyanın hər yerində bir-birlərinə etibar etmədən qorxu içində yaşayırlar. Qorxu mühitində sevgi olması, əlbəttə, qeyri-mümkündür. Dövrümüzdə heç kimin bir-birinə salam verməməsi, salam verənin salamının ardında pis niyyət axtarılmasının kökü də sevgisizlik mühitinin meydana gətirdiyi inamsızlıqdır.

### Sevgisizlik iqtisadi böhranın səbəbidir

Bir çox insanın bir-birinə nifrət etdiyi bu dünyada iqtisadi böhranın olması labüddür. Çünki sevgisizlik keyfiyyətsiz mal istehsal olunmasına, ən qısa müddətdə çox qazanc əldə edib qazandığını da gizlədib heç kimə verməməyə təhrik edir.



Halbuki, Allah'a olan dərin sevginin Allah'ın təcəllilərinə də yönəldilməsi insanlar arasında yardımlaşma hissi doğurur və malının ehtiyacından artıq qalanını xeyir işlərə sərf etməsinə səbəb olur. Belə bir sistemdə isə dünyada rifahın olacağı aydındır. Yardımlaşma və ədalət sayəsində insanların iqtisadi gücü yüksəlir. Zəngin cəmiyyət meydana gəlir.

## Mərhəmətsizliyin, yardımdan qaçmağın mənbəyi sevgisizlikdir

İnsanların mərhəmətsizliyi və zalımlığı da sevgisizlikdən qaynaqlanır. Bu cür insanlar avtomobillə bir adamı vurduqdan sonra arxasına baxmadan qaçır və ya yolda gördüyü ölüm ayağında olan, bəlkə də lazımi müdaxilə edildikdə xilas ediləcək insanın yanından vicdansızlıqla ötüb keçirlər. Bəzi kafe sahiblərinin mətbəxlərində gigiyena qaydalarına riayət etməməsinin, yaşlı insanlara hörmət edilməməsinin, təcili yardım tələb olunan xəstələrin lazımi diqqət göstərilmədiyi üçün ölməsinin, ehtiyac içində olan insanlara xor baxılmasının, bir ovuc torpaq üçün milyonlarla məsum insanın qətlə yetirilməsinin, kiçik uşaqlara təcavüz edilməsinin, qadınlara zorakılıq tətbiq edilməsinin və təcavüzə məruz qalmasının, insanların bir-birlərinə qarşı qəzəbli, aqressiv olmalarının səbəbi də sevgisizlikdir.

*Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir! (Bəqərə surəsi, 208)*

## Sevgisizlik əxlaqi pozuntunun səbəbidir

Allah insanları sevməyə və sevilməyə uyğun fitrətdə yaratmışdır. Sevgi görməməsi və fitrətində olduğu halda özünü sevgidən uzaq tutması insanı başqa istiqamətlərə yönəldir və onu əxlaqi pozuntuya sürükləyir. Bu insan Allah'ın haram etdiyi fahişəlik, qumar, oğurluq kimi hərəkətlər etməkdən, insanların hüquqlarını tapdamaqdan çəkinmir. Sevgisizliyinə görə, nəfsinin ehtiyaclarını təmin etmək üçün eynilə heyvanlar kimi davranır. Sərbəst cinsi həyat, narkotik maddələrdən istifadə, avaralıq, üsyankarlıq kimi hər cür əxlaqdankənar hərəkəti edir. Dövrümüzdə özünəqəsd hadisələrinin artmasının, narkotik maddələrdən istifadənin əsas səbəbi də sevgisizlikdir.

## Müharibə və cinayətlər sevgisizliyin nəticəsidir

Sevgisizliyin gətirdiyi bəlalardan biri də insanlar arasında mərhəmətsizliyin, kindarlığın, qəzəbin, zülmün hakim olmasıdır. Bu cür insanlar öz mənfəətləri üçün və ya birinə qəzəbləndiklərinə görə asanlıqla cinayət törədə bilirlər. Haqsızlıqla bir insanın canına qəsd edən, soyuqqanlılıqla ardıcıl cinayətlər törədən, ani qəzəb və ya qısqanclıq nəticəsində ən yaxın adamını və ya heç tanımadığı birini öldürən, hətta bu işi pulla görən insanların sayı dövrümüzdə din əxlaqından uzaq yaşayan cəmiyyətdə çoxdur. Qəzet və televiziyadan bir gün belə əksik olmayan cinayət xəbərləri cəmiyyətdəki sevgisizliyin, əxlaqi pozuntunun açıq göstəricisidir.

Dövrümüzdə baş verən müharibə və qırğınlar da bunları edənlərin insanlıqdan nə qədər uzaqlaşdıqlarını göstərir. Hər cür əxlaqi hissiyyatdan, insanpərvər duyğulardan, mərhəmətdən, şəfqətdən, sevgidən uzaq olan bu insanlar vəhşi qırğınları gözlərini belə qırpmadan həyata keçirəcək qədər sevgisizdirlər.

## Sevgisizlik bədən hüceyrələrini öldürür

ADNAN OKTAR: İman zəif olduqda, insanın sümüyü də, əti də, yağı da, saçı da, başı da çürüyür, ağlı gedir, beyni məhv olur. Hər yeri əriyib ölür. Çünki sevgisizlik, şəfqətsizlik bədən hüceyrələrini öldürür, toksik təsir göstərir.

Bədən bir dəfə dözür, iki dəfə dözür, sonra tab gətirmir. Gözəl qızlar, gənc oğlanlar şam kimi əriyib pərişan olurlar. Axşama qədər yatırlar, oyanırlar, nə edəcəklərini bilmirlər. Ağızları acılaşmış, beyinləri məhv olmuş, yaddaşları pozulmuşdur. Şeytan sehrini bu cür edir. İnsanlardan imanı alıb, iman getdikdən sonra da insanın bədəni çökür. Beyinin funksiyaları pozulur. Diqqət dağılır, yaddaş pozulur, düşünmə qabiliyyəti gedir, bədən hüceyrələri özlərinə hücum etməyə başlayır. Dəriləri xarab olur, dişləri çürüyür, məhv olurlar. İman olduqda hüceyrələr bayram edir. Saç hüceyrəsi, qaş hüceyrəsi, burun, ağız, dil- hər orqan bayram edir. Çünki iman hüceyrəyə şərbət təsiri göstərir.

Hüceyrə sırf qanla qidalanmır, çünki bədənə ruh hakimdir. Bədəni canlı saxlayan ruhdur, Allah'ın iznilə. Ruh da imanla qidalanır. Ruhdan imanı çəkib aldıqda ruh məhv olur, bədənə hücum etməyə başlayır. Bədənin içində qala bilmir, əzilir.

Ruh Allah'ındır, məsumdur, ancaq imansızlıq olduqda məhv olur, bacarmır, bədəndən xilas olmaq istəyir. Onda bədənə hücum etməyə başlayır, sonra da insan məhv



olur, insanı dəli edir. Çünki biz yaradıldıqda imana uyğun yaradılmışıq. Yəni imanla yaşayacaq şəkildə yaradılmışıq. İman getdikdə bütün sinir sistemi pozuntuları, xəstəliklər başlayır. İman nə qədər getsə, insan o qədər pərişan olur. İman zəifliyi insanı dəli edir. İnsan nə qədər imanlıdırsa, o qədər sağlam, yaxşı, gözəl olur, o qədər rahat olur. Ona görə, Allah ayədə: "Dünyada yaxşılıq verərəm", -buyurur. Həm zənginlik, həm rahatlıq, həm də fərəh verir. Allah: "Hz. Musaya (ə.s) qatımızdan xeyir bəxş etdik", -buyurur, maşaAllah. (Cənab Adnan Oktarın 25 aprel 2012 tarixli A9 TV söhbətindən)

## Söhbətləri, bir-birlərinə münasibəti soyuq və məsafəlidir

Sevgidən uzaq insanların sevgi adlandırdığı duyğu çox sünidir. Bu insanlar əsl sevginin dadını heç bilmədiklərinə görə sevgini təqlid etməyə çalışırlar. Kinoteatrlarda, filmlərdə verilən süni sevgi təqlidlərini gündəlik həyatlarında əks etdirirlər. Bu yanlış sevgi təqlidi daima bir-birinin zəif cəhətini üzə çıxaran, söhbətlərində ən adi qüsuru tutmaq üçün diqqətlə dinləyən, hər sözdən eyhamlı məna çıxarmağa çalışan, söz atan, davakar, nifrət dolu üslub ehtiva edir. Bu insanlar qarşısındakını əzmək, alçaltmaq və öz qürurlarını bəsləmək üçün daima onların qüsurlarını axtarırlar. Bu insanların üzləri və baxışları da içlərindəki sevgisizliyi və nifrəti əks etdirəcək şəkildə çirkindir.

## GÖZƏL ƏXLAQIN MƏNBƏYİ SEVGİDİR

Rəbbimizin axirətdə cənnəti yaratmasının məqsədi sevgidir. Dünyada da Allah bizdən sevgi istəyir. Uca Rəbbimiz bütün kainatı sevgi üzərində qurmuşdur. Dünyada insanların imtahan edilmə səbəbi də sevgidir. Allah sevgini öyrənməyimiz üçün bizi imtahan edir.

İnsan səmimi imanının dərinliyinə görə sevir və sevilir. Allah'ın yaratdığı varlıqları Onun təcəllilləri kimi gördüyü üçün bu varlıqlara sevgi, şəfqət bəsləyir və onlara olan sevgisindən böyük həzz alır. Sevgi ancaq Allah sevgisi və qorxusu ilə qazanılır. Bu duyğular insanların daha şəfqətli, daha mərhəmətli, daha mehriban





və incədüşüncəli olmalarına səbəb olur və gözəl əxlaqın mənbəyini təşkil edir. Odur ki, Allah Quranda sevginin qarşısındakı bütün maneələri aradan qaldıran gözəl əxlaqın formalaşması üçün əmrlər vermişdir. Ayədə belə buyurulur:

***Onlardan əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına mühacirət edənləri sevər, onlara verdiklərinə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. Nəfsinin xəsisliyindən qorunub saxlanan kimsələr – məhz onlar nicat tapıb səadətə qovuşanlardır! (Həşr surəsi, 9)***

### Səbir sevgini əldə etmək üçün vasitədir

İnsan Quranı həyatına tam tətbiq etdikdə sevginin qarşısı açılır. Məsələn, Quranda səbir əmr edilir. Səbir isə sevgini əldə etmək üçün vacibdir. Çünki səbir olmasa, insan sevdiyinin səhvini, qüsurunu görər, sevdiyindən ayrılar. Səbir olmadan insanın sevgini əldə etməsi çətindir.

### Xeyirxahlıq qarşılıqlı sevgi meydana gətirir

Eqoistlik sevgini aradan qaldırır. Comərdlik isə sevgini artırır. Ona görə, Allah Onun yolunda malından sərf etməyi və yardım etməyi əmr etmişdir. Xeyirxahlıq həm yardım edilən insanda, həm də yardım edəndə qarşılıqlı sevgi meydana gətirir. Allah sevgisi və qorxusuna malik olan mömin həmişə din qardaşının yaxşılığını istəyir. Öz əbədi həyatını düşündüyü kimi, qardaşının da axirətini düşünür, səhvi oluqda ona xatırladır, pis əməldən çəkindirməyə çalışır. Özü üçün etdiyi dualarında din qardaşlarını əsla unutmaz. Möminlərin bu üstün əxlaqı Quranda belə xəbər verilmişdir:

***Onlardan sonra gələnlər belə deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!" (Həşr surəsi, 10)***

### Sevgi yalanın qarşısını alır

Yalan söyləyən insanlar qaranlıq ruh halına malikdirlər. Vicdanları və ağılları təmiz deyil. Yalan söyləyən birini insan sevə bilmir, çünki daima yalan danışan bir insanın həqiqi şəxsiyyəti ilə ünsiyyət qurmaq mümkün deyil. Yalan söyləməmək də sevginin əmələ gəlməsinə səbəb olur.



### Vəfa, sədaqət və bağışlamaq ancaq sevgiylə mümkündür

Quran əxlaqıyla yaşayan insan sevdiklərini şəfqətlə sevir. Dəfələrlə səhv etsə də, sevdiyinə qarşı mərhəmətlidir. Ona görə, bağışlamaq möminlər arasında sevgiyə zəmin hazırlamaqda Allah'ın bəxş etdiyi nemət və gözəlliklərdən biridir. İnsanın qarşısındakı şəxsə sevgisinin yaşlılıq, şikəstlik və ya maddi itki kimi hallarda da dəyişməməsi Allah'ın əmr etdiyi vəfa və sədaqət hisslərinin nəticəsidir.

Möminlərin sevgisi Allah rizası üçündür. Ona görə əbədidir. Bu sevgi əvvəlcə dünyada və daha sonra axirətdə əbədiyyən davam edəcək. Odur ki, möminlərin bir-birlərinə olan sevgiləri də əbədidir. Allah'ın səmimi qullarına bəxş etdiyi bu nemət ***"Biz onların ürəklərindəki kindurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər. (Hicr surəsi, 47)"*** ayəsilə bildirildiyi kimi, axirətdə ən gözəl şəkildə yaşanacaq.

Gözəl əxlaqın mənbəyi sevgiyə əsaslanır. Dünyadakı ən böyük həzz və ən çox zövq verən şey sevgidir. Sevgi insanın əxlaqını gözəlləşdirir, eqoist deyil, şəfqətlidir, nəfsinin istəklərinin ardınca qaçmır, əksinə, mərhəmətlidir. Çünki mərhəmət sevgini davam etdirən qüvvədir. Səbir, fədakarlıq, cəsarət, mehribanlıq kimi bütün gözəl xüsusiyyətlərin kökündə Allah sevgisi və Onun təcəllilərinə olan sevgi var. Ruhdakı dərinlik və ağılın mənbəyi də Allah rizası üçün Onun təcəllilərinə duyulan sevgiyə əsaslanır. Dünyanın yaradılmasının məqsədi də sevgidir. Sevgisizlik isə insanı çox şeydən məhrum edir. Sevgini itirdikdə dünya maddi və mənəvi cəhətdən cəhənnəmə çevrilər.

### ALLAH'I SEVMƏDƏN SEVGİ OLMAZ

Allah sevgisi bütün sevgilərin mənbəyidir. Sevgi duyduğumuz hər şeydə sevgi hissini qəlblərə verən uca Rəbbimizdir. Şəfqət və sevgi duyduğumuz nə varsa, özündə uca Allah'ın üstün yaratma sənətinin,

bənzərsiz gözəlliyinin, sonsuz elminin, ağlının və qüdrətinin təcəllilərini əks etdirir. Ailəmiz, dostlarımız, sevdiyimiz insanlar, xoşumuza gələn bütün yeməklər, bəyəndiyimiz paltarlar, həyatımızı asanlaşdıran bütün vasitə və avadanlıqlar, baxmaqla doymadığımız mənzərələr, rəngarəng çiçəklər, körpə uşaq, kiçik sevimli quzu, parıldayan ulduzlar, mavi səma... Bütün kainat uca Allah'ın qullarına olan sevgisi, mərhəməti və rəhmətinin nümunələri ilə doludur. Ağlı və vicdanından istifadə edərək düşünən hər insan bütün bu gözəllikləri və nemətləri yaradıb insanların xidmətinə verənin uca Allah olduğunu anlayar. Beləliklə, ətrafında gördüyü hər şeydə Rəbbimizin qullarına olan sonsuz sevgisinin nümunələrini görər. Bütün bunlar isə iman gətirənlərin coşğun sevgi ilə Rəbbimizə könüldən bağlanmalarına vəsilə olur.

*"Göylərdə və yerdə olanların hamısını O sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Casiyə surəsi, 13)"* ayəsində bildirildiyi kimi, möminin sevgiylə Allah'a yönəlməsi və Onun təcəllilərini də bu cür sevgiylə sevməsinin kökündə göylərdə və yerdə olanların hamısının Allah'ın neməti olduğunu unutmaması dayanır. Möminin insan, qadın, uşaq, heyvan, çiçək və s. kimi bütün yaradılmış varlıqlara olan sevgisinin çox güclü olmasının səbəbi budur. Ona görə, baxdığı hər şeydə Allah'ı görür. Allah rizası üçün sevdiyinə görə, baxdığı hər şeyə aşiqdir. Bu sevgi Allah sevgisindən qaynaqlanan təbii əhvaldır və coşğun iman, ağıl, dərinlik, fədakarlıq, igidlik və çox yüksək əxlaqla qazanılır.

Bu şüurla hərəkət edən insan gördüyü hər gözəllik qarşısında Rəbbimiz Allah'ı təsbih edib şanını ucaldır.

Allah'ı hər şeydən çox sevən və hər an Onun istədiyi gözəl əxlaqla yaşayan insanlar bir-birilərini də dərin sevgi və hörmətlə sevərlər. Dünya həyatında Allah sevgisini nəfsani sevgidən üstün tutan səmimi möminlər axirətdə, Allah'ın izniylə, əbədiyyən sevdikləri ilə birlikdə yaşayacaqları cənnət bağçalarında olmağı ümid edirlər:

***Zalımları qazandıqları günahların qorxusundan tir-tir əsən görəcəksən. O, mütləq onların başına gəlmişdir. İman gətirib yaxşı işlər görənlər isə cənnət bağçalarındadırlar. Rəbbinin dərgahında onlar üçün istədikləri hər şey var. Budur ən böyük nemət! (Şura surəsi, 22)***

Əsl səmimi sevgi Allah'ın ancaq müsəlmanlara verdiyi, dünyadakı və sonsuz axirət həyatındakı ən böyük nemətlərdən biridir. Allah'ın rizasını istəməyən və Quran əxlaqı ilə yaşamayanlar üçün əsl sevgi heç vaxt əldə edə bilməyəcəkləri nemət itkisidir. İnsanların bir çoxu sevgini təqlid edərək sevirmiş kimi görünməyə çalışırlar. Lakin hər şeyin yaradanı olan uca Allah Onu sevməyən və iman gətirməyənlərə bu sevgini verməyəcəyini, ancaq iman gətirənlərə sevgi bəxş edəcəyini Quranda qəti şəkildə bildirir:

*İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)*

## SEVGİSİZLİK HZ. MEHDİ (Ə.S) VASİTƏSİLƏ ARADAN QALXACAQ

**Axırzamanda hz. Mehdi (ə.s) insanların həqiqi və dərin sevgini yaşamalarına səbəb olacaq**



Yaşadığımız axırzamanda hz. Mehdinin (ə.s) zühurundan əvvəl Quran əxlaqından uzaqlaşdıqlarına görə insanlar arasında sevginin, anlayışın, şəfqət və mərhəmətin azalacağı Peyğəmbərimizin (s.ə.v) hədislərində xəbər verilmişdir. Peyğəmbərimiz (s.ə.v) bu vəziyyətin ancaq hz. Mehdinin (ə.s) vasitəsilə düzələcəyini belə müjdələmişdir:

Hz. Əli ibn Əbu Talib (ə.s) belə buyurur: ***"Qaimimiz (Hz. Mehdi (ə.s) qiyam etdikdə İNSANLARIN QƏLBİNDƏKİ DÜŞMƏNÇİLİK VƏ İXTİLAF SƏBƏBLƏRİNİ KÖKÜNDƏN QAZIYACAQ. Beləliklə, ümumi asayiş və təhlükəsizlik bərqərar olacaq"***. (Bihar-ul Envar, 52-ci cild, səh. 336)

Hz. Mehdinin (ə.s) ən əsas xüsusiyyətlərindən biri Allah'a və Onun təcəllilərinə qarşı duyduğu dərin sevgi və məhəbbət olacaq. Bu, dünya səviyyəsində insanların da bir-birlərini çox sevmələrinə vəsilə olacaq.

Bu məqsədlə hz. Mehdi (ə.s) hər sözü və davranışı ilə insanlar arasındakı bütün düşmənçilik, kin və qəzəbin səbəblərini aradan qaldırıb onları sülhə və birliyə dəvət edəcək. Nəticədə, insanlar hz. Mehdi (ə.s) vəsiləsilə tamamilə yeni düşüncə tərzinə malik olacaq və əsl sevgini öyrənib yaşayacaqlar.

Hədislərdə hz. Mehdinin (ə.s) vəsiləsilə meydana gələn bu sevgi mühitində "dənizdəki balıqlardan havadakı quşlara qədər yerdəki və göydəki bütün canlıların və insanların hz. Mehdidən (ə.s) razı olduqları" belə bildirilmişdir:

Əbu Səid Peyğəmbərimizin (s.ə.v) belə buyurduğunu rəvayət edir: ***"... Daha sonra Allah Təala Əhli-beytimdən birini zülmlə dolan yer üzünü ədalətlə doldurması üçün göndərəcək. GÖYÜN VƏ YER ÜZÜNÜN SAKİNLƏRİ ONDAN (HZ. MEHDİDƏN) RAZI OLACAQLAR..."*** (El-Beyan, s. 72, Es-Sevaik-ul Muhrika, səh. 161, Yenabi-ul Mevedde, 2-ci cild, səh. 177)

***Hz. Mehdi (ə.s) ilə müjdələnin... ONDAN YER VƏ GÖY ƏHLİ RAZIDIR...*** (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 13)

***ONUN XİLAFƏTİNDƏN (MƏNƏVİ LİDERLİYİNDƏN) YER VƏ GÖY ƏHLİ, HƏTTA HAVADAKI QUŞLAR BELƏ RAZI OLACAQ.*** (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 26)

***... O VAXT YER VƏ GÖY ƏHLİ, BÜTÜN VƏHŞİ HEYVANLAR, QUŞLAR, HƏTTA DƏNİZDƏKİ BALIQLAR BELƏ ONUN (hz. Mehdinin (ə.s) XİLAFƏTİ İLƏ (mənəvi liderliyi ilə) SEVİNƏCƏKLƏR...*** (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)

Əbu Səid Xudri Rəsulullahdan rəvayət edir: ***"Hz. Mehdinin (ə.s) tərəfdarları ona sığınarlar, BAL ARILARININ ANA ARIYA SIĞINDIQLARI KİMİ (ONUN YANINDA ƏMİN-AMANLIQ İÇİNDƏ OLARLAR), o, yer üzünü ədalət və dürüstlüklə dolduracaq"***. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 30)






# Qadınları alçaldan nəzəriyyə: DARVİNİZM

Sosial darvinizmin irqçiliyə, faşizmə və imperializmə (və digər tərəfdən də kommunizmə) verdiyi sözdə elmi dəstək, ümumiyyətlə, bilinən və çox yazılan bir mövzudur. Çox bilinməyən həqiqət isə Çarlz Darvin də daxil olmaqla, bir çox darvinistin qadınların həm bioloji, həm də əqli cəhətdən kişilərdən aşağı olduqlarına inanmasıdır.

Darvinistlərin kişilərlə qadınların arasında mövcud olduğunu iddia etdikləri əqli fərq o qədər əhəmiyyətli dərəcədədir ki, bəzi təkamülçülər qadın və kişini iki fərqli fiziki növə ayırmışdır. Onlara görə, kişilər homo frontalis, qadınlar isə homo parietalisdir.

Darvinin qadınları aşağı növ olaraq təyin etməsinin səbəbi təbii seleksiyaya əsaslanan dünyagörüşünə sahib olmasıdır. Darvinistlərin bu elmdən kənar və ağılsız fikrinə görə, kişilər qadınlara nisbətən döyüşmək, yoldaş tapmaq, yemək və geyim əldə etmək üçün rəqabət aparmaq kimi mövzularda seçimə daha çox məruz qalırlar; qadınlar isə tarix boyu bu cür seçimlərdən uzaq qalmışlar. Bu elmi dayağı olmayan mənfəətə görə, təbii seleksiya kişilərin üzərində böyük güc tətbiq etdiyi üçün kişilər hər sahədə daha üstün mövqeyə gəlmiş, qadınlara nisbətən daha çox təkmilləşmişlər. Darvinin bu mənfəəti elmi tapıntılara əsaslanmır, tamamilə təkamülçü ön mühakimələrin nəticəsində xəyali olaraq ortaya atılmışdır.

Təkamülçü elmi yazıçı E.Morqan isə Darvinin biologiya, etnologiya və digər bəzi elm sahələrindən istifadə etməklə kişiləri qadınların aşağı və dəyişə bilməz şəkildə ikinci sinif olduqlarını düşünmələri üçün təşviq etdiyini ifadə edir.

Təkamülçü elm adamı C.R.Durantın ifadə etdiyi kimi, irqi və cinsi ayrıseçkilik təkamül nəzəriyyəsinin müəyyən nəticələrindən ikisidir:

Darvin fikrini heyvan və insanların görünüşləri ilə əlaqədar bəzi müşahidələrə əsaslandırdı. Kiçik beyni və qavrayışı olan, daha qüvvətli qolları ilə məntiqdən çox instinktə malik həyat sürən vəhşilər təbiət və insan arasında orta mövqeyə yerləşdirilmişlər. Daha sonra Darvin bu sıralamaya uşaqları və doğuşdan əqli zəifləri və eyni zamanda, qadınları da daxil etmək məqsədi ilə genişləndirmişdir. Darvin qadınların hiss, sürətli qəbul etmə və bəlkə təqlid kimi güclərinin aşağı irqlərin, dolayısilə, qədim və aşağı mədəniyyət səviyyəsinə malik insanların xüsusiyyətlərinə bənzər olduğunu düşünürdü.

Durantın bəhs etdiyi Darvinin yanılmaları "İnsanın törəməsi" adlı kitabında belə keçir:

Ümumiyyətlə, qadınlarda hiss, sürətli qavrayış və bəlkə təqlid gücü kimi xüsusiyyətlərin kişilərə nisbətən daha diqqəti cəlb edən olduğunu etiraf etmək olar; ancaq bu qabiliyyətlərdən (heç olmasa) bəziləri aşağı irqlərə və bu səbəbdən də qədim və aşağı mədəniyyət səviyyəsinə aid xüsusiyyətlərdir.

Darvinin qadınlar və evlilik haqqındakı ümumi düşüncələri də düşünüldüyündə qadınları ikinci sinif və aşağı səviyyəli varlıqlar kimi gördüyü açıq şəkildə bəlli olur. Darvin bu elmdən kənar fikrini nəzəriyyəsinə də əks etdirmişdi. Evliliyin niyə faydalı olduğunu özünə görə belə açıqlayırdı:

Uşaqlar, daimi dost, yaşlı vaxtlarda maraqlı birisi, sevilən və oyun oynamağa bir nəfər... Hər şeyə baxmayaraq, itdən daha yaxşı bir şey. Ev və evlə maraqlanan



bir adam. Musiqidən, havadan və sudan söhbətlər. Bunlar sağlamlıq üçün yaxşı şeylərdir.

Qısacası, Darvin evliliyi “bir qadının yoldaşlığı necə də olsa, bir itin yoldaşlığından daha yaxşıdır” məntiqi ilə lazımlı görürdü. Darvin evliliklə əlaqədar ifadələrində bütün həyatını birlikdə keçirən iki insanın arasındakı dostluq, sevgi, hörmət, bağlılıq, sədaqət, yaxınlıq, səmimiyyət və güvən kimi xüsusiyyətlərdən heç danışmırdı. Bundan başqa, Darvin evlilik haqqında bunları da deyirdi:

Vaxt itkisi; axşamlar oxuya bilməzsən, köklük və tənbəllik, narahatlıq və məsuliyyət, kitablar və s. üçün daha az pul ayırmaq, əgər çox uşağınız varsa, dolanışıq çətinliyi... Bəlkə yoldaşım Londonu sevmədi, onda key və tənbəl bir axmaqla birlikdə sürgün həyatı yaşayıb cəzalanmış olaram.

İnsanların heyvanlardan əsaslı fərqinin olmadığını, xüsusilə qadınların və uşaqların heyvanlara daha yaxın varlıq olduğunu zənn edən bir insan üçün belə ağıl və vicdandan uzaq ifadələr çox təbiidir. Yoldaşını və uşaqlarını aşağı növ kimi görən insan, əlbəttə ki, onlara sevgi, hörmət göstərməz, onlar üçün fədakarlıq etməz və onlara qarşı hər hansı bir gözəlliyin olmasını istəməz; mənfəətinə uyğun olmadıqca onlarla maraqlanmaz. Əslində, Darvinin ifadələri darvinist əxlaqda insan sevgisinin, yaxınlıq və dostluğun yaşana bilməyəcəyini bir daha göstərir.

Darvin özünə görə kişilərin qadınlardan daha üstün olduqları iddiasını isə belə ifadə etmişdir:

İki cinsin əqli cəhətdən fərqlərini kişilərin dərin düşünmə, məntiq, təxəyyül və ya yalnız duyğu və əllərdən istifadəni tələb edən hər işdə qadınlardan daha yüksək mövqelərə çatmaları göstərir. Şeir, şəkil, heykəltəraşlıq, musiqi, tarix, elm və fəlsəfə mövzularında öndə gələn qadın və kişilərin siyahısı hazırlansaydı, iki siyahını müqayisə etmək mümkün olmazdı. Bay Qaltonun “Hereditary genius” (İrsi dahi) adlı kitabında çox gözəl ifadə etdiyi kimi, əgər kişilər bir çox mövzuda qadınlar üzərində mübahisəsiz şəkildə üstünlüyə sahibdirlərsə, onda kişilərin orta hesabla zehin gücünün qadınlara nisbətən yüksək olması nəticəsini orta hesablardan kənarlaşma qanunundan çıxara bilərik.144

Şübhəsiz, Darvin bu yanlışlığı önə sürərkən heç bir elmi sübuta əsaslanmırdı. Darvinin qadınlar haqqındakı bu cür və ön mühakiməli iddiaları sürətlə öz dövründəki elm adamları arasında yayıldı.

Cenevrə Universitetində təbiət tarixi professoru olan materialist K.Voqt Darvinin gəldiyi bütün nəticələri qəbul edir və uşaq, qadın və qoca ağ dərilinin yetkin zənci ilə eyni zehni xüsusiyyətlərə və şəxsiyyətə sahib olduğunu, dolayısilə, onların aşağı sinifdən olduqlarını iddia edirdi. Voqt daha da irəli getmiş və qadınların kişilərdən çox aşağı heyvanlara yaxın olduğu yalanını önə çəkmişdi. Voqtun səhv düşüncələrinə görə, qadın təkamülü erkən dayandığı üçün inkişafı əngəllənmiş insan idi.

Allah qadını və kişini bərabər yaratmışdır. Kişinin qadından üstün olduğunu iddia edib, qadınlara bu yolla təzyiq göstərməklə onlara qarşı ikinci sinif insan davranışı göstərmək din əxlaqının yaşanmadığı cəmiyyətlərə xas vəhşilikdir.

Dövrümüzdə bərabər fürsətlər verildiyində qadınların da kişilər qədər müvəffəqiyyətli, ağıllı və qabiliyyətli olduqları bilinir və bunun saysız nümunəsi vardır.




# ALLAH BÖYÜKDÜR

Allah'ın sonsuz elminin, sonsuz ağlının və sonsuz gücünün dəlilləri də sonsuzdur. Kainatda hər yaradılışın dəlilləri olan saysız varlığın bir-birilə ahəngi nəticəsində meydana gələn möhtəşəm nizam var. Elə bir nizam ki, hər şey incə-incə qurulmuş, insan ağlının əsla dərk edə bilməyəcəyi təfərrüatlarla birlikdə heç bir qüsur olmadan yaradılmışdır.

Məsələn, nəfəs almaq insanın həyati funksiyalarından biridir. Amma bunu bacara bilməsi üçün ən kiçik cəhd göstərməsinə belə ehtiyac yoxdur. Həm xarici aləmdə, həm də bədənində lazım olan bütün nizam Allah tərəfindən yaradılmışdır. İnsan doğulduğu andan ölənə qədər heç dayanmadan nəfəs alır. Bəs bu funksiyanın reallaşması üçün hansı ünsürlərin bir yerdə olmalı olduğunu bilirsinizmi?

Hər şeydən əvvəl insanın nəfəs ala bilməsi üçün atmosferdəki azot, oksigen və karbon 4-oksid nisbəti çox yaxşı tənzimlənməlidir. Bu tarazlıqda kiçik dəyişikliklərin olması insanın ölümünə səbəb olan təhlükəli nəticələrə gətirə bilər. Allah bu nisbətin qorunması üçün saysız amili səbəb etmişdir. Günəşdən, günəşin işığından istifadə edərək fotosintez edən bitkilərə, torpaqdakı mikroorqanizmlərə qədər bir çox varlıq bu nisbətin qorunmasından məsuldur. Yağan yağışlar, çaxan şimşəklər, təzyiq səviyyəsi, yerin nüvəsindəki elementlərin nisbəti və daha saymaqla bitməyəcək xeyli ünsür dolayı və ya birbaşa bu qaz nisbətinin qorunması üçün fəaliyyət göstərir. Bunlardan biri olmasa, məsələn, hətta gözümüzlə görə bilmədiyimiz mikroorqanizmlər fəaliyyətlərini dayandırsa, azotun dövriyyəsi, karbon 4-oksidin dövriyyəsi kimi bir çox həyati funksiya bir anda dayanar. Bu səbəbdən, bir-birinə sürətlə təsir edən sistemin proqramı bir anda pozular.

Ancaq ətrafınıza baxdığınızda gördüyümüz nizam və tarazlıqdan rahatlıqla



anlayırıq ki, belə bir fəsad milyardlarla ildir meydana gəlməmiş, bundan sonra da Allah'ın dilədiyi vaxta qədər baş verməyəcək. Çünki Allah incə nizamlarla tarazlanmış bu sistemləri bir-bir, hər an fəaliyyətdə saxlayır və kainatdakı bütün nizam Allah'ın əmri ilə qorunur.

Allah insanların Onun böyüklüyünü qavraya bilmələri üçün kainatdakı nizamı saysız incəliklərlə birgə yaratmışdır. Quranda Allah'ın yaratdığı bu nizamdan bəhs edilərkən, "...Allah'ın hər şeyə qadir olduğunu və Allah'ın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)" - deyilir. Bu nizama elə xüsusiyyətlər daxildir ki, insan düşünməyə hardan başlayacağını belə bilmir. Çünki Allah'ın ağlı, elmi və qüdrəti sonsuzdur. Tək bir hadisənin daxilində dilədiyi qədər incə məqamlar meydana gətirir.

Biz yatarkən, oturarkən, gəzərkən Allah kainatdakı bütün sistemləri bir-bir idarə edir. Varlığımızın davamı üçün meydana gələn proseslərin hər biri Allah'ın idarəsindədir. Kiçik bir addım ata bilməyimiz belə, yerin cazibə qüvvəsindən skelet sistemimizə, sinir və əzələ sistemimizdən beynimizə və ürəyimizə, hətta dünyanın fırlanma sürətinə qədər hər şeyin Allah tərəfindən incəliklə hesablanmış olmasına bağlıdır.

Dünyanın və bütün kainatın varlığını davam etdirə bilməsini təsadüflərə bağlamaq isə çox böyük yanlışlıqdır. Əslində, dünyadakı və kainatdakı hər nizam təsadüfə qətiyyən yer olmadığının və Allah'ın varlığının açıq dəlilidir. Məsələn, dünya günəş ətrafında dövr edərkən elə bir orbit cızır ki, hər 29 km-də düz xəttdən yalnız 2.8 millimetrlik bir meyillənmə olur. (Elm və Texnika jurnalı, İyul 1993) Əgər bu meyillənmə 0.3 millimetr az və ya 0.3 millimetr çox olsa, yer üzündəki canlılar donaraq və ya qovrularaq ölərdilər. Hətta kiçik bir maddənin millimetr kənara çıxmadan eyni orbitdə dönməsi az qala qeyri-mümkün olduğu halda, nəhəng kütləsi ilə dünya belə bir dönməni həyata keçirir. "...Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 3)" ayəsində bildirildiyi kimi, ətrafımızda gördüyümüz möhtəşəm nizam, Allah'ın milyardlarla böyüklükdəki sistemləri millimetrlərə bağlı tarazlıqlarla qoruması nəticəsində mümkün olur.

İnsanların çoxu Allah'ın varlığına inansalar belə, Allah'ın hər şeyi yaratdığı sonra bu nizamın öz-özünə davam etdiyi şəklində batil inanca sahibdirlər. Halbuki, kainatın hər nöqtəsində hər an meydana gələn bütün hadisələr Allah'ın iznilə, Onun bilgisi və idarəsi daxilində reallaşır. Quranda bildirildiyi kimi:

***Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda (Lövhi-məhfuzda) mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır. (Həcc surəsi, 70)***

Siz bu yazını oxuyarkən dünyanın müxtəlif bölgələrində küləklər əsir və tonlarla buludları yerindən tərpədir. Bəlkə otağınızdan içəri günəş işığı düşür, amma dünyanın sizin bilmədiyiniz bir hissəsində hər yer buzla örtülmüş, başqa bir hissəsində yağışlar yağır, bu vəziyyəti Allah bizə Quranda yağan hər yağışın Öz qatından təyin olunmuş miqdar ilə endiyini bildirir. Qar da Onun qatında məlumdur, qurudakı buzun qalınlığı da... Üstəlik, dünyanın hər yerində cücərən saysız toxumun məlumatı da... Həqiqət budur, çünki:

***... Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir dişi hamilə olmaz və daşıdığı yükü (bətnindəkini) yerə qoymaz.... (Fussilət surəsi, 47)***

Gördüklərinizin və ya görmədiklərinizin hamısı hər an Allah'ın izni ilə fəaliyyətdədir. Sizi də, etməkdə olduqlarınızı da, canlı-cansız bütün varlıqları da Allah yaradır və idarə edir. Dünyada atmosferdən litosferə, hidrosferdən biosferə qədər olan həssas və tarazlı həyat, günəş sistemində olan doqquz planetin hər an getdiyi yol, o planetlərdə meydana gələn bütün hadisələr də Allah'ın idarəsindədir. Allah sonsuz elmi ilə bunları yaradır və nizamlayır. Sonsuz gücü və qüdrəti ilə hər şeyi qoruyur və fəaliyyətlərini davam etdirmələrinə izn verir.



# ATLARIN AYAQ ÜSTƏ YATDIQLARINI BİLİRDİNİZMİ?

Necə olur ki, atlar ayaq üstə yatarkən yıxılmırlar? Çünki ayaq sümüklərinin kilidlənmə xüsusiyyəti var. Rəbbimizin verdiyi bu xüsusiyyət sayəsində atlar həm ayaq üstə yatır, həm də çox ağır yükləri daşıyırlar. Halbuki, insanlar oturduqları yerdə yuxuya getdikdə belə başları yana düşür.

Atların ayaqları təkcə ağır yük daşımaq üçün deyil, eyni zamanda, daha sürətlə qaçmaq üçün xüsusi yaradılmışdır. Digər heyvanlardakı kimi atlarda körpücük sümüyü yoxdur. Bu onların daha böyük addım atmasına səbəb olur. Bundan əlavə, atların ayaqlarında sürətləndikcə sərf etdikləri gücü azaldan, bunun əvəzində hərəkət qabiliyyətlərini artıran sümük-əzələ mexanizmi var. Bu mexanizmin işləməsini avtomobillərdəki ötürücü mühərrikə bənzədə bilərik. Sürətini artıran avtomobilin sürət qutusunda növbəti sürət çarxına keçməsi kimi, atlar da sürətlərini artırdıqca bir növ növbəti sürət çarxına keçirlər. Bu yolla itələməyə sərf edilən güc azaldılır, hərəkət qabiliyyəti artır.

Bəs atların bədənləri nə üçün çox ağır yükləri daşımaq və sürətlə qaçmaq üçün dizayn edilmişdir? Ağır yük daşımaq və sürətlə qaçmaq ata fayda verən xüsusiyyətlər deyil. Elə isə bəs nə üçün atlar bu xüsusiyyətlərə malikdirlər? Cavab çox sadədir: atlara bu qabiliyyətlər özləri üçün deyil, insanlara faydalı olmaları üçün verilmişdir. Yəni atları Allah bu xüsusiyyətləri ilə insanlara xidmət etmək üçün yaratmışdır.

# ALLAHIN QƏDRİNİ HAQQI İLƏ NECƏ TƏQDİR ETMƏK OLAR?

İnsan hər gün oyandığı andan etibarən Allahın ona verdiyi nemətlərlə qarşılaşır. Nəfəs ala bilir, görə bilir, eşidə bilir, düşünə bilir, ürəyi döyünür, hüceyrələri yenilənir. Acdığı zaman yemək yeyir və ləzzət alır, özündə güc tapır, susayır, susuzluğunu yatıra bilir, danışa bilir. Bunlar Allah'ın insan üçün yaratdığı nemətlərdən yalnız bir neçəsidir. Nemətlərin fərqində olan insan üçün ən əhəmiyyətlisi Allah'ın qədrini haqqı ilə təqdir edə bilməkdir. Çünki Allah'ın şanı çox ucadır, hər şeyin sahibidir, yaradıcısıdır. Allah'ın isimləri haqqında düşünərək tanımağa çalışmaq lazımdır. Allah ayələrdə şanının ucalığını bizə belə bildirir:

***"Onlar Allah'ı layiqincə qiymətləndirmədilər. Halbuki, Qiyamət günü yer bütünlüklə Onun Ovucunda olacaq, göylər isə Onun Əli ilə büküləcəkdir..."(Zumər surəsi, 67)***

Kainatda insanın öz yaradılışından qiyamətin qopmasına qədər, göylərin yaradılmasından dənizlərin və dağların varlığına qədər hər hadisədə ehtişam və sərhədsiz güc var. Bu güc yalnız üstün ağıl sahibi olan Allah'a aiddir. Allah insanlara kitablar endirmiş və peyğəmbərlər göndərmişdir. Özünü həm yaratdığı canlılarda nümayiş etdirdiyi bənzərsiz sənəti və elmi, həm də kitablar və peyğəmbərlər vasitəsilə bizə tanıdır. İnsan Allah'ın ucalığını, böyüklüyünü lazımi kimi təqdir edə bilməsi üçün olduqca çox dərin düşünməlidir.

## YARADILIŞ MƏQSƏDİMİZ NƏDİR?

Yaradılış məqsədimizi Allah bizlərə Quranda belə bildirir:

***...insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. (Zariyat surəsi, 56)***

Bu ayədə bizə bildirildiyi kimi, insanın yer üzündə yaradılış məqsədi yalnız Allah'a qulluq etmək, Ona ibadət etmək, Onun razılığını qazanmaqdır. İnsan dünyada yaşadığı müddət boyunca bu mövzuda imtahan edilir. Allah dünyada Ona iman edənlərlə etməyənləri bir-birindən ayırmaq və iman edənlərdən də hansının daha gözəl davranacağını təyin etmək üçün insanları sınayır. Buna görə, bir insanın "mən iman etdim" deməsi kifayət deyil. İnsan yaşadığı müddət boyunca Allah'a olan imanı və bağlılığı, dində qətiyyətli olması, qısaca olaraq Allah'a qulluğundakı səbri ilə xüsusi olaraq yaradılan şərait və mühitlərlə sınanır. Allah bu həqiqəti bir ayədə belə bildirir:

***"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır". (Mülk surəsi, 2)***



Allaha qulluq etmək isə insanın bütün həyatını Allah'ın məmnuniyyətini, razılığını qazanmaq məqsədi ilə davam etdirməsidir. Etdiyi hər işi Allah'ın razı olacağı ən gözəl şəkildə yerinə yetirməyə çalışması, yalnız Allah'dan qorxub çəkinməsi və bütün düşüncələrini, sözlərini, hərəkətlərini bu məqsədlə etməsidir.

## "QƏTİ İMAN GƏTİRMƏK " NƏ DEMƏKDİR?

Bir insan əlini oda uzatdığında yanacağını bilir və bundan heç bir şübhəsi yoxdur. "Görəsən həqiqətən yanarmı?" kimi bir düşüncəyə qapılmaz. Bu o deməkdir ki, həmin insan odun əlini yandıracağına qəti şəkildə inanır. Quran ayələrində isə "qəti iman"dan bu şəkildə bəhs edilir:

***"Bu Quran insanlar üçün açıq-aydın bir dəlil, qəti inananlar üçün isə doğru yol göstəricisi və mərhəmətdir". (Casiyə surəsi, 20)***

Qəti iman yuxarıdakı od nümunəsində olduğu kimi, tam əminliklə, heç bir şübhə duymadan, o an ətrafında gördüyü, danışdığı şeylər qədər həqiqi olduğuna əmin olaraq Allah'ın varlığına, təkliyinə, qiyamət gününə, cənnətin və cəhənnəmin varlığına iman etmək deməkdir. Qətiyyətə söykənən iman, insanın hər davranışını, həyatının hər anını yalnız Allah'ı məmnun edəcək şəkildə keçirəcək vicdana yönəldər. Allah ondan qorxan insanın vicdanına hər zaman ən doğru olanı ilham edər. Eyni zamanda unutmamaq lazımdır ki, ümumiyyətlə insanın ürəyində duyduğu ilk səs doğrunu səhvdən ayırd etməsini təmin edən vicdanının səsidir və Allah'ın məmnun olacağı rəftar ilk duyulan səsin söylədiyidir. Beləliklə, Allah'dan qorxan insanlar da vicdanlarının səsini dinləyərək doğrunu taparlar.

## ALLAH'IN RAZILIĞININ ƏN ÇOXUNU QAZANMAQ NƏ DEMƏKDİR?

Mömin də əlindəki hər cür maddi və mənəvi imkanını, həyatının hər saatını hətta hər saniyəsini Allah'ın razılığına uyğun şəkildə qiymətləndirər. Bunu edərkən qarşısına çıxan alternativlər arasından seçim etməli olarsa, ağıl və vicdanından istifadə edərək hərəkət edər, yəni Allah'ın məmnun olacağı şəkildə davranar. Bu şəkildə Allah'ın razılığının ən çoxunu qazanmaq üçün hərəkət edər. Allah'ın razılığını güdərək bir işi yerinə yetirməklə Allah'ın razılığının ən çoxunu qazanmağa çalışar. Allah Quranda belə bildirmişdir:

***"İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik". (Kəhf surəsi, 30)***

# QURAN ƏXLAQI İLƏ NECƏ YAŞAMAQ OLAR?



### Quran əxlaqı nə deməkdir?

Quran əxlaqı dünyada gözəl həyat yaşamaq və əbədi axirətə hazırlıq görmək üçün Allah'ın insanlara lütfüdür. İnsanın həyatı boyu qarşılaşdığı hər hadisədə necə davranmalı olduğunu, Rəbbimizin hansı davranışları bəyəndiyini öyrənəcəyi həyat rəhbəridir. Bu əxlaqla yaşamaq çox asan, zövqlü və rahatdır.

### Dünyada və axirətdə gözəl əxlaqın sirri: Quran əxlaqı

Quran əxlaqı insanın fitrətinə uyğun yeganə həyat tərzidir. İnsanı yoxdan yaradan Allah onun nələrə ehtiyacı olduğunu, hansı ibadətləri yerinə yetirməyə gücü çatdığını, necə sağlam, rahat və xoşbəxt olacağını bilir.

Din əxlaqına uyğun yaşamaq insanların üzərindəki bütün ağırlığı, onların həyat tərzini məhdudlaşdıran çətinlikləri aradan qaldırır. İnsanın ancaq sonsuz mərhəmət sahibi, şəfqətli, bağışlayan, hər şeyi xeyirlə yaradan, bütün gücün sahibi olan Allah'ın onun üçün müəyyən etdiyi qədərə təslim olmasını, hər şeydə ancaq Onun rizasını istəyərək Ona üz tutmasını bildirir.

Kainatdakı hər varlığın və baş verən hər hadisənin sahibi olan Allaha güvənmək və Onu dost tutmaq insanın həyatındakı bütün qorxuların, narahatlıqların, sıxıntı və çətinliklərin də sonu deməkdir.

Bu həqiqəti bilməyən bir çox insan isə din əxlaqından uzaqlaşdıqda daha rahat yaşayacaqlarını, əxlaqi dəyərlərə əhəmiyyət vermədikdə müstəqil olacaqlarını düşünürlər. Din əxlaqının həyatlarını çətinləşdirən bəzi məhdudiyyətlər gətirdiyini zənn edirlər. Halbuki, bütün bunlar insanların səhvi və şeytanın yalanlarıdır. Çünki Allah'ın buyurduğu din əxlaqına uyğun yaşamaq olduqca asandır. Əslində isə Allah'ın bildirdiyi hədləri tanımayan insanlardan ibarət cəmiyyətdə yaşamaq çətindir. Belə bir həyat tərzi çox pis nəticələrə səbəb olur.

Din əxlaqından uzaq yaşayan cəmiyyətdə və ya iman gətirməyən insanların həyatlarında, əsasən, xaos,



qarışıqlıq, narahatlıq, qorxu, bədbəxtlik və stress hakimdir.

Bu cür cəmiyyətdə yaşayan, Allah-dan lazımınca qorxmayan bir insan hər cür əxlaqsızlığı edə bilər, heç bir şeydə sərhəd tanımaz və əxlaqsız həyat tərzi yaşayar. Belə bir həyatda insanlar bir-birləri üçün fədakarlıq etməz, bir-birlərinə sevgi, hörmət bəsləməz, çətin anlarda maddi-mənəvi dəstək olmazlar. Buna görə də belə bir həyat əsla heç bir insana xoşbəxtlik gətirməz. Din əxlaqına uyğun yaşamadığı mühitdə insan rahatlıq tapmaz, hələ bu dünyada olarkən cəhənnəmin mənəvi əzabını çəkməyə başlayar.

## Quran əxlaqı ilə necə yaşamaq olar?

İnsanlar üçün ən gözəl nümunələrin verildiyi, hər sualın cavabının olduğu Quranda namaz qılmaq, zəkat vermək, oruc tutmaq kimi hamıya məlum olan ibadətlərlə yanaşı, hərtərəfli tərif edilən bir həyat tərzi və əxlaq anlayışı var. Allah qatında qarşılığı olan və Rəbbimizin razı qaldığı bir çox davranış tərzi Quran ayələrində xəbər verilmişdir. Bu davranışların hər biri eynilə namaz qılmaq kimi uca Allah'ın əmridir və ibadətdir. Quranda həm də Rəbbimizin əmrlərinə uyğun olaraq çəkinəcəyimiz bir çox pis hərəkət və rəftar da xəbər verilmişdir. Bununla yanaşı, dünya həyatı bir imtahan yeri olduğuna görə, hər insanın dünyada qaldığı müddət ərzində müxtəlif səbəblərlə imtahan olunacağı aşkardır. Nəfəs aldığımız hər an imtahanımız fasiləsiz davam edir. Allah'ın bizim üçün təqdir etdiyi ölüm vaxtı gələnə qədər davam edəcək. Ona görə, hər insan hər yeni gün müxtəlif hadisələrlə imtahan ediləcək, davranışlarından məsul olacaq. Quran əxlaqı ilə yaşamaq bütün bu hökmlərin işığında həyat tərzi keçirməkdir.

## Rəbbimizi razı edən davranışlar hansılardır?

Rəbbimizi razı edən davranışların hansılar olduğunu öyrənmək üçün bizə təqdim edilmiş dəyərli iki rəhbər var: Qurani-kərim və Peyğəmbərimizin (s.ə.v) sünnəsi.

Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) Quran əxlaqına uyğun davranış və tövsiyələri hədislər vasitəsilə bizə gəlib çatmışdır. Sünnə Peyğəmbərimizin (s.ə.v) Quran əxlaqı ilə necə yaşadığının ən gözəl nümunələridir. Peyğəmbərimiz: "Din asanlıqdır. (Buhari, İman: 29; Nesai, İman: 28; Musned, 5:69)" - buyuraraq insanları din əxlaqı ilə yaşamağa dəvət etmişdir.

Anlayış, mərhəmət, gülərüzlülük, incə düşüncəli olmaq, fədakarlıq, vəfa, xeyirxahlıq, ədalət, sədaqət, təvəkkül, ixlas, şövq, təmizlik, səmimiyyət, şəfqət, vicdan, təvazökarlıq, qənaətkarlıq, səbir... Bütün bu gözəl əxlaqi xüsusiyyətlər Quran əxlaqı





ilə yaşamağa səbəb olan, insanın yaradılış fitrətinə uyğun, insana xoşbəxtlik və rahatlıq verən, uca Allah'ın bəyəndiyi və təriflədiyi davranışlardır.

Şirk, eqoistlik, təkəbbür, qısqanclıq, yalan, məsxərə, qeybət, pislik, fitnə-fəsad, israf, qəzəb kimi pis davranışlar isə pis əməllərdir.

Yuxarıda sadalanan mənfi və müsbət bir çox cəhət bütün cəmiyyətlərdə tanınan əxlaqi xüsusiyyətlər olsa da, bunları həyata keçirməli olduqda bəzi çatışmazlıqlar ortaya çıxır. Məsələn, bəzi insanlar cəmiyyətdə yaxşı tanınmaq üçün bəzi mənfi hərəkətlərdən uzaq durur, ancaq tək olduqda və kimsə görmədikdə çəkindikləri həmin hərəkətləri edirlər. Çünki bu davranışların əhəmiyyəti, qarşılığı və məsuliyyətini yaxşı dərk etmir, düşünmür və çox vaxt etinasız yanaşır. Əksər hallarda gözəl əxlaqi xüsusiyyətlərə "olsa, yaxşı olar, olmasa, o qədər də vacib deyil" məntiqi ilə yanaşırlar. Halbuki, Quran əxlaqının təməlində Allah qorxusu və Allah'ın rizasını qazanmaq istəyi var. Bir mömin Allaha olan bağlılığı, sevgisi və qorxusuna görə Onun əmrlərini dəqiqliklə yerinə yetirir, Onun rizasını qazanmaq üçün ciddi səy göstərir. Buna görə də mömin hamının bildiyi, ancaq çox vaxt həyata keçirmədiyi əxlaqi xüsusiyyətləri müəyyən şüur və məqsədlə yerinə yetirir. Bu məqsədində də səmimi, qətiyyətli və daimidir. Uca Rəbbimiz ancaq Onun üçün ixlasla edilən davamlı və saleh əməllərdən razı qalacağını Qurani-kərimdə bildirmişdir:

***Allah doğru yolda olanların doğruluğunu artırar. Davamlı olan yaxşı işlər isə Rəbbinin yanında savab etibarilə daha xeyirli, nəticə etibarilə daha yaxşıdır! (Məryəm surəsi, 76)***

Bir neçə misal çəkək: gözəl sözlə bir müsəlmanı şövqləndirməyin, ona Allah'ı xatırlatmağın, bir mömin üçün fədakarlıq etməyin və buna bənzər saysız-hesabsız əməlin Allah qatında mükafatı olan ibadət olduğunu unutmaq olmaz.

## Quran əxlaqının insana qazandırdığı üstün xüsusiyyətlər

Ancaq həqiqi iman sahibləri lazımınca Quran əxlaqı ilə yaşayar və bu gözəl həyatı yaşamaqdan böyük həzz alarlar. Ona görə, uca Allaha səmimi qəlbdən iman gətirmək vacibdir. İman şüuru ilə hərəkət edən bir insan bütün həyatını uca Rəbbimizi razı etməyə həsr edər, Onun rizası üçün nəfsinin mənfi xüsusiyyətlərindən xilas olar, vicdanının səsini dinləyərək yaxşılıq və gözəlliyin tərəfində olar, bu yolla Quran əxlaqı ilə əxlaqlanar.



Quran əxlaqı ilə yaşamağa qərar verən şəxs özünü Allaha təslim etməli və Quran əxlaqını özünə rəhbər etməlidir.

Beləliklə, bu insanın həyatında, davranışlarında, düşüncələrində, qərarlarında və söhbətlərində çox mühüm dəyişikliklər meydana gələr.

Bundan sonra Allah'ın iznilə, qəlbinə yerləşən Allah qorxusu sayəsində məhşər günündə hesabını verə bilməyəcəyi heç nəyi etməmək üçün səy göstərər. Çünki bu insan Allah'ın hər an onu gördüyünə və dünya həyatındakı bütün işlərinə görə sorğu-sual olunacağına yəqinliklə inanmışdır.

Buna görə, ətrafındakı insanların hər hansı səhvinə anlayışla yanaşar və onu bağışlayar. Kiçik yaxşılığın belə axirətdə əvəzinin misli ilə veriləcəyini bildiyinə görə ətrafındakı insanlara qarşı həmişə xeyirxah, fədakar, təvazökar, hörmətcil və ədalətli olmağa çalışar.

İşlər planlaşdırdığı kimi getmədikdə bunun xeyirli olduğunu bildiyi üçün Allaha təvəkkül edərək və qədərinə təslim olaraq rahat yaşayar.

Qəzəbləndikdə qəzəbini cilovlamaqdan, mərhəmətli və şəfqətli davranmaqdan, səbirli, ədalətli və təvazökar olmaqdan və bunun kimi gözəl əxlaqi xüsusiyyətləri həyata keçirməkdən zövq alar.

Verdiyi qərar nəticəsində Quran əxlaqını özünə rəhbər tutan insanın keçmişdəki dəyər ölçüləri tamamilə dəyişər. Məsələn, həmişə hər vəziyyətdə güclünün deyil, haqlının tərəfində olar, ədalətdən ayrılmaz.

Ətafındakı insanları mövqelərinə, gözəlliklərinə, mədəniyyətlərinə və ya zənginliklərinə görə deyil, Allah qorxularına görə dəyərləndirər.

Allahdan başqa heç kimdən kömək gözləməz, qorxuya, ümidsizlik və bədbinliyə qapılmaz.

Bu insan, təbii ki, cidd-cəhdlə israfçılıqdan çəkinər, nəfsinin istəklərindən qorunar, təmizlik və estetikaya əhəmiyyət verər.

Nemət və bolluq içində yaşadığı anlarda olduğu kimi, darlıq, çətinlik və sıxıntı vaxtlarında da şükür edər.

Bütün bu sadaladıqlarımızdan insanın ruhu zövq alır, Allah'ın rizasını istəyərək etdiyi və adi görünən hər iş, yediyi hər yemək, baxdığı hər gözəl mənzərə, dediyi hər gözəl söz onun üçün savab və xoşbəxtlik mənbəyi olur.

Bundan əlavə, bu gözəl əxlaqi xüsusiyyətlərdən xəbərdar olan insan Allah'ın üzərinə yüklədiyi məsuliyyət olaraq İslam əxlaqının insanlar arasında yayılması üçün səy göstərməli və ya bu yolda cəhd edənlərə kömək etməlidir.

Unutmaq olmaz ki, Rəbbimiz qullarından daimi saleh əməllər etməyi istəmişdir. Ona görə, ancaq qətiyyət və iradə ilə din əxlaqına uyğun yaşamaq olar. Müsəlmanın vəzifəsi Allah'ın vəhy etdiyi bu üstün əxlaqı ən incə təfərrüatına qədər tətbiq etməkdir.

## Quran əxlaqı ilə yaşamayanların gərəksiz bəhanələri



Buraya qədər izah edilənlərin doğruluğunu hər vicdanlı insan qəbul edər. Ancaq yenə də bəzi insanlar dünyadakı əməllərinə görə sorğu-sual olunacaqlarını qəbul etdikləri halda, şeytanın başqa bir yalanına aldanırlar. Şeytan bəzi lüzumsuz bəhanələr uyduraraq insanların din əxlaqı ilə yaşamaq üçün ciddi səy göstərmələrinə mane olmaq istəyir. Şeytanın bu cəhdi Quranda belə bildirilir:

***Dedi: "Sənin izzətinə-qüdrətinə and olsun ki, onların hamısını azdıracağam; yalnız Sənin ixlaslı bəndələrindən başqa! (Sad surəsi, 82-83)***

***Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!" (Əraf surəsi, 17)***

Şeytanın təlqini ilə meydana gələn səhv düşüncələrdən bəziləri bunlardır: Ətrafımızda rast gəldiyimiz bəzi insanlar dindar olmaq, əxlaqlı olmaq kimi anlayışları şüurlu və ya şüursuz şəkildə fərqli qavrayırlar. Bu insanlar əxlaqlı olmağı adam öldürməmək, yalan danışmamaq, oğurluq etməmək və buna bənzər bir neçə əsas davranışdan ibarət hesab edir. Bir neçə ibadəti yerinə yetirib ən çox məlum olan haram işlərdən uzaq durmağı anlayır və ya əsasən, asan olduğu üçün bunları yerinə yetirirlər. Halbuki, əsl asanlıq tam, lazımi qaydada Quran əxlaqına uyğun yaşamaqdadır.



Bu yanlış təfəkkürə malik insanlar Qurana uyğun olmayan məntiqə əsaslanaraq Allah'ın hökmlərini yanlış şəkildə əhəmiyyətinə görə ayırd edirlər. Hətta bəzi hökmləri də tamamilə həyatlarında çıxararaq bir kənara qoyurlar. Quranda fərz olduğu açıq şəkildə bildirilən bir çox məsələ "Etsən, savabdır; etməsən də, heç nə olmaz" məntiqi ilə dəyərləndirilir. Çəkinməli qadağalar isə "Allah bağışlayar" məntiqi ilə rahatlıqla çeynənilir. Halbuki, Quranın heç bir ayəsində belə bir ölçüdən bəhs edilmir. Namaz, oruc kimi ibadətlər Allah'ın qəti əmri olduğu kimi, Quranda bildirilən digər əmr və qadağalar da eyni şəkildə bütün möminlər üçün qəti hökmlərdir. Allah Quranda insanları buna qarşı belə xəbərdar edir:

***... Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir. (Bəqərə surəsi, 85)***

Bu mövzunu belə bir misalla açıqlaya bilərik:

Bir insan cəmiyyətin əxlaqi təzyiqi ilə zina və ya oğurluq kimi Quranda qadağan edilmiş əməllərdən çəkinə bilər.

Ancaq bu insan vicdanını susduraraq narahat olmadan: başqalarının qeybətini edirsə, lovğalanıb insanları özündən aşağı görürsə, insanların razılığını

qazanmaq üçün yaxşı işlər görürsə, möminlərə iftira atırsa, etməyəcəyi bir şeyi deyirsə, Quranda bildirilən vaxtlarda ibadətlərini yerinə yetirmirsə, Quranda tərif edilən qadağan edilmiş əməllərdən çəkinməyi əhəmiyyətsiz hesab edirsə, bu insanın tam şəkildə Quranda bildirilən gözəl əxlaqla yaşadığını demək olmaz.



Bu insanların düşdüyü ən böyük səhvlərdən biri isə Quranda bildirilən hökmlərdən bir neçəsini yerinə yetirdiklərinə görə əxlaqlarını kafi hesab etmələridir. Əlbəttə, Allah qatında Rəbbimizin rizası üçün edilən hər ibadətin qarşılığı var. Ancaq bilə-bilə, görməzlikdən gəlib yerinə yetirilməyən ibadətlərin də məsuliyyəti böyükdür. Namazını qılan, orucunu tutan bir kəs əgər bütün bunları səmimi şəkildə edirsə, Allah'ın iznilə, axirətdə qarşılığını alacaq. Ancaq bilmədiyinə və ya cahilliyinə görə deyil, Qurandakı digər hökmlərə məhz bilə-bilə əhəmiyyət vermir və yerinə yetirmirsə, axirət günü gözləmədiyi vəziyyətlə qarşılaşa bilər (doğrusunu Allah bilir).

Digər lüzumsuz bəhanə isə budur ki, Quran əxlaqı ilə tam yaşamaq üçün dünyəvi işlərdən tamamilə uzaq durmaq lazımdır. Bu düşüncədə olan insanlar ancaq peyğəmbərlərin və bəzi xüsusi elm sahibi olan şəxslərin Quran əxlaqı ilə yaşaya bildiyini, özlərinin bu məsuliyyəti daşımağa güclərinin və vaxtlarının çatmadığını iddia edirlər. Halbuki, Allah insanlara güclərinin çatmadığı yükü yükləmədiyini, möminlərin dünyadan onlara düşən payı unutmamalarını və insanlar üçün asanlıq istədiyini Quran ayələrində açıq şəkildə bildirmişdir:

***... Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, (istəyir ki,) siz tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz. (Bəqərə surəsi, 185)***

## Quran əxlaqı ilə yaşamaq asandır



Allah'ın bütün əmr və hökmləri insan fitrətinə ən uyğun şəkildədir və heç birində çətinlik yoxdur. Rəbbimiz Quranda din əxlaqı ilə yaşamağın asan olduğunu və bu əxlaqa tabe olanların işlərini asanlaşdıracağını belə bildirir:

***Səni ən asan olana müvəffəq edərik. (Əla surəsi, 8)***

***... O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı... (Həcc surəsi, 78)***

Ayələrdə də buyurulduğu kimi, Quran əxlaqı ilə yaşanan həyat insan üçün, Allah'ın iznilə, ən gözəl həyat tərzidir.

Nəticə olaraq bunu xatırlatmaq istəyirik ki, İslam əxlaqını olduğu kimi asan göstərmək, insanların qəlblərini Quran əxlaqına isindirmək, insanlara ayələri və Peyğəmbərimizin (s.ə.v) sünnəsini öyrədib bu əxlaqla yaşamalarına səbəb olmaq hər müsəlmanın mühüm vəzifəsidir.




# Darvinistlərin elm adına irəli sürdükləri SAXTAKARLIQLAR

## Piltdaun adamı saxtakarlıqdır

Məşhur həkim və eyni zamanda həvəskar paleontoloq olan Çarlz Dovson 1912-ci ildə İngiltərədə Piltdaun yaxınlığındakı bir çökəklikdə bir çənə sümüyü və kəllə parçası tapdığı iddiası ilə üzə çıxdı. Çənə sümüyü meymun çənəsinə bənzəməsinə baxmayaraq, dişlər və kəllə insanınkına bənzəyirdi. Əldə edilən fosillərə "Piltdaun adamı" adı verildi, 500 min illik tarix təyin edildi və fosil insanın xəyali təkamülünə ən mühüm dəlil kimi İngiltərədəki Britaniya muzeyində (British Museum) nümayiş etdirilməyə başladı. 40 ildən çox müddət ərzində haqqında bir çox elmi məqalə yazıldı, şərhlər edildi və rəsmlər çəkildi. Dünyanın müxtəlif universitetlərindən 500-dən çox akademik Piltdaun adamı haqqında doktorluq işi müdafiə etdi.

Məşhur amerikalı paleontoloq H.F. Osborn da 1935-ci ildə Britaniya muzeyinə səfərində: "Təbiət sürprizlərlə doludur, bu, bəşəriyyətin tarixdən əvvəlki dövrləri haqqında mühüm tapıntıdır", - deyirdi.

Lakin Piltdaun adamı böyük saxtakarlıq, şüurlu şəkildə qurulmuş böyük hiylə idi.

1949-cu ildə isə Britaniya muzeyinin paleontologiya bölməsindən Kennet Oukli yeni yaş müəyyən etmə üsulu olan "ftor testi" metodunu bəzi qədim fosillər üzərində sınamaq istədi. Bu üsulla Piltdaun adamı fosili üzərində də sınaq keçirildi. Keçirilən testdə Piltdaun adamının çənə sümüyünün tərkibində heç ftor olmadığı məlum oldu. Bu, çənə sümüyünün torpağın altında bir neçə ildən çox qalmadığını göstərirdi. Tərkibində az miqdarda flor olan kəllə isə sadəcə bir neçə min illik olardı.

Ftor metoduna əsaslanaraq aparılan sonrakı xronoloji tədqiqatlar kəllə sümüyünün ancaq bir neçə min illik olduğunu üzə çıxardı. Çənə sümüyündəki dişlərin isə süni şəkildə aşındırıldığı, fosillərin yanındakı ibtidai alətlərin də polad alətlərlə yonularaq düzəldilmiş kobud təqlid olduğu məlum oldu. Veynerin həyata keçirdiyi ətraflı təhlillərlə bu saxtakarlıq 1953-cü ildə qəti şəkildə elan edildi. Kəllə sümüyü 500 il yaşa maşik insana, çənə sümüyü də yeni ölmüş oranqutana aid idi! Dişlər insana aid olması təsəvvürünü vermək üçün sonradan xüsusi şəkildə əlavə edilmiş və düzülmüş, oynaq yerləri də yiyələnmişdi. Köpək dişi də iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi elə dərin yiyələnmişdi ki, pulpanın dəliyi üzə çıxmış, sonra içi doldurulmuşdu.
Bu heyrətli həqiqəti elmi yazıçı Hank Haneqraff belə söyləmişdi:

Marvin Lubenovun açıqlamalarına əsasən, alt çənədəki oranqutan dişlərinin üzərindəki yiyə izləri açıq-aydın görünürdü. Azı dişləri səhv düzülmüş və iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi də iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi elə dərin yiyələnmişdi ki, pulpanın dəliyi üzə çıxmış, sonra içi doldurulmuşdu.

Təkamülçü bioloq Keyt Stuard Tompson Piltdaun adamı ilə bağlı bu böyük yalanı "1912-ci ildəki Piltdaun adamı saxtakarlığı bütün elmi saxtakarlıqların ən uğurlu və xainlərindən biridir" kimi şərh edirdi.

Bu təəccüblü və darvinistlər üçün utandırıcı kəşfin ardınca Piltdaun adamı 40 ildən çox müddət ərzində nümayiş etdirildiyi Britaniya muzeyindən dərhal çıxarıldı. Darvinist saxtakarlıq o qədər irəli getmişdi ki, bir süni fosil 40 il ərzində bütün elmi kütlələri və bəşəriyyəti aldatmışdı.

Jurnalist yazıçı və filosof Malkolm Maqeric isə Piltdaun adamı fosili kimi saxtakarlıqlarla yaşadılmağa çalışılan darvinizmin bütün bəşəriyyəti saldığı vəziyyəti bu sözlərlə tərif edirdi:

Təkamül nəzəriyyəsinin, xüsusilə də onun tətbiq edildiyi sahələrin gələcəkdə tarix kitablarındakı ən böyük məzhəkə mövzularından biri olacağına inandım. Gələcək nəsillər olduqca zəif və şübhəli hipotezin inanılmaz sadəlövhlüklə qəbul edilməsini təəccüblə qarşılayacaqlar..

## Nebraska adamı saxtakarlıqdır

1922-ci ildə Amerika Təbiət Tarixi Muzeyinin müdiri H.F.Ozborn Qərbi Nebraskadakı İlan dərəsi yaxınlığındakı Plieosen dövrünə aid azı dişi fosili tapdığını açıqladı. Bu diş iddiaya əsasən, insan və meymunların ortaq xüsusiyyətlərini daşıyırdı. Çox keçmədən bu məsələ ilə bağlı çox böyük elmi müzakirələr başladı. Bəziləri bu dişin sahibini Pithecanthropus erectus olduğunu söyləyir, bəziləri isə bunun insana daha yaxın olduğunu deyirdilər. Böyük müzakirələrə səbəb olan bu diş fosilinə "Nebraska adamı" adı verildi. "Elmi" adı da dərhal qoyuldu: Hesperopithecus haroldcooki.

Bu tək dişə əsaslanaraq Nebraska adamının kəlləsi və bədəni bərpa edildi. Hətta daha da irəli gedərək Nebraska adamının ailəsinin təbii mühitdə rəsmlərini dərc etidlər. Bütün bu ssenarilər bircə dişdən uydurulmuşdu. Təkamülçü kütlələr bu fantastik adamı o qədər mənimsəmişdilər ki, Uilyam Brayn adlı bir tədqiqatçı bircə azı dişinə əsaslanaraq bu qədər erkən hökmlə qərar verilməsinə qarşı çıxdıqda qəzəblə qarşılandı.

Ancaq 1927-ci ildə skeletin digər hissələri də tapıldı. Tapılan yeni hissələrə görə, bu diş nə meymuna, nə də insana aid idi. Dişin Prosthennops adlandırılan amerikan qabanının nəsli kəsilmiş cinsinə aid olduğu məlum oldu. Uilyam Qreqori bu səhvi xəbər verdiyi "Science" jurnalındakı məqaləsinə belə başlıq qoymuşdu: "Göründüyü kimi, Hesperopithecus nə meymun, nə də insandır".

Elmi yazıçı Hank Haneqraff bu məsələ ilə bağlı hadisələri nəql edir:

1922-ci ildə Nebraskada bir diş kəşf edildi. Bir az fantaziya gücü ilə bu diş mifoloji çənə sümüyünə, çənə sümüyü kəlləyə, kəllə də skeletə yerləşdirildi və skeletə bir üz, digər xüsusiyyətlər və tüklər əlavə edildi. Bu hekayə London qəzetlərində əks etdirildikdə təkcə "Nebraska adamı"nın deyil, eyni zamanda, "Nebraska qadını"nın da rəsmi vardı. Bunların hamısı yalnız bircə dişdən ortaya çıxmışdı. Bir də skelet tapsalar, nələr olacağını siz düşünün. Bəlkə də bir il KİV-də yayımlayardılar.

Bu kəşfdən bir müddət sonra bunabənzər bir diş geoloq Harold Kuk tərəfindən tapıldı. Bu dəfə diş həqiqi kəlləyə yerləşdirildi və kəllə də qaban skeletinə yerləşdirildi. Beləliklə, "elmi" baxımdan Hesperopithecus haroldcooki adlandırılan Nebraska adamının mif kimi maskası düşdü.

Bu hadisə nəticəsində Hesperopithecus haroldcooki və "ailəsi"nin bütün rəsmləri dərhal elmi ədəbiyyatdan çıxarıldı. Nebraska adamı, əslində, darvinistlərin bircə dişi bəhanə edərək necə fantastk təkamül ssenarisi uydura bildiklərinin mühüm göstəricisidir. Diş fosili canlının ümumi anatomiyasına dair, demək olar ki, heç bir məlumat verməməsinə baxmayaraq, qaban dişinə əsaslanaraq Nebraska adamının və ailəsinin rəsmlərinin çəkilməsi və bu saxtakarlığın ifşa edilənə qədər elmi göstərilməyə çalışılması darvinizm adına böyük biabırçılıqdır. Lakin bu nümunə darvinist saxtakarlıqların qarşısını almamış, darvinist yalanlar şüurlu şəkildə davam etmişdir.



# XİLASA APARAN YOL: TƏMİZ AĞIL SAHİBİ OLMAQ

Təmiz ağıl sahibi olmaq dərin düşünməyi, incəlikləri qavramağı, hikmətli danışmağı, doğru ilə yanlışı bir-birindən ayırd etməyi, hadisələr haqqında mühakimə yeritməyi, doğru qərarlar verməyi və xeyiri görməyi ifadə edir. Vicdanının səsini dinləyərək Allah'a üz tutan hər insan qısa müddətdə təmiz ağıla sahib ola bilər. Bunun üçün Allah'a səmimi iman gətirmək, Ondan lazımınca qorxmaq və Rəbbimizin istədiyi kimi həyat yaşamaq lazımdır. Bu səmimi iman insana ağıl qazandırır.

## Allah'dan çox qorxmaq

Ağıl insanın həyatının sonuna qədər inkişaf edən xüsusiyyətdir. Bu isə tamamilə Allah qorxusu ilə və vicdanı gücləndirməklə əlaqədardır. Allah bir ayədə ***"Allah`dan bacardığınız qədər qorxun. Qulaq asın; itaət edin… (Təğabun surəsi, 16)"*** hökmü ilə inananlara güclərinin çatdığı qədər Özündən qorxub-çəkinməyi əmr etmişdir. Odur ki, insan heç vaxt Allah qorxusunu kafi hesab etməməlidir. Daima özünü Allah'a daha da yaxınlaşdıran yollar axtarmalı və vicdanını sona qədər dinləməlidir. Uca Allah, səmimiliyinə və Öz rizasını qazanmaq məqsədilə göstərilən ciddi cəhdə görə möminlərə verdiyi anlayışı və doğru ilə yanlışı bir-birindən ayırd etmək qabiliyyətini artıra bilər. Bu, Allah'ın iman gətirənlərə dəstəyi və Quranın mühüm sirridir. İnsan, əlindəki bu imkandan yaxşı istifadə edərək ağılın dünyada və axirətdə qazandırdığı üstünlükləri əldə edə bilər.

## Quranı rəhbər etmək

Bir insan imanın qazandırdığı dərin ağıla və qavrayışa malik olmaq üçün əvvəlcə bəzi məsələlər üzərində düşünməlidir. Dünyaya gəlişinin məqsədi, bir gün həyatının ölümlə bitəcəyi və uca Allah'ın çinar ağacını belə yüz illərlə yaşadarkən insanlara təqribən 60-70 il ömür verməsinin ardındakı səbəblər üzərində düşünməlidir. Quran insanın düşünməli olduğu bütün bu sualların qapısını açan açardır. Çünki Quran Rəbbimizin qullarına Özünü tanıtdığı, dünya həyatının əsl məqsədini, axirəti, gözəl əxlaqı bildirdiyi vəhyidir. İnsan Quran vasitəsilə səhvlərini anlayar, qəti tövbə edib səhvini təkrarlamaqdan çəkinər, Allah'ın böyüklüyünü və qüsursuz olduğunu dərk edər, həyatını Onun rizasını, rəhmətini qazanmaq üçün keçirər, əmr və qadağalarına cidd-cəhdlə

əməl edər və gerçək həyat olan axirətdə cənnəti qazanmağı ümid edə bilər.

İnsanın fitrətinə uyğun olan həyatı yaşaması üçün ağlına və vicdanına ən uyğun yol da budur. Bu yola tabe olmaq insanın ağlını və qavrama gücünü daima artırar. Çünki ağıl imanda dərinləşməyin təbii nəticəsidir. Uca Allah Quranın təmiz ağıl sahibləri üçün yol göstərən kitab olduğunu bir ayədə belə bildirir:

***Bu (Quran) insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm Allah'ın tək bir tanrı olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar! (İbrahim surəsi, 52)***

### Şeytandan gələn vəsvəsələri müəyyən etmək

Şeytanın ən mühüm xüsusiyyəti insana hər tərəfdən yanaşaraq onu Allah'ın yolundan uzaqlaşdırmağa çalışmasıdır. Vəsvəsə də şeytanın insanı boş şeylərlə məşğul etmək üçün pıçıldadığı sözlər, yanıltmalar, qəlbə verdiyi narahatedici, boş şübhələr və düşüncələrdir.

Şeytan insanın ağlına gətirdiyi Qurandankənar düşüncələrlə onun sağlam düşünməsinə mane olub, onu dünya və axirət həyatına zərər verən şübhələrə salmaq istəyir. Ancaq uca Allah'ın Quranda bildirdiyi kimi, şeytanın hiyləli tələsi çox zəifdir (Nisa surəsi, 76). İmanın qazandırdığı təmiz ağıl sayəsində möminlər sürətli mühakimə qabiliyyəti ilə şeytanın verdiyi vəsvəsənin öhdəsindən gəlirlər. Əlbəttə, bu, imanın qazandırdığı dərrakənin meydana gətirdiyi təbii nəticədir. Belə ki, uca Allah möminlərin şeytanın bu tələsini yaxşı-yaxşı düşünərək dərhal anlayacaqlarını belə bildirmişdir:

***Allah'dan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allah'ı) xatırlayıb düşünərlər və dərhal (gözləri açılıb) görən olarlar. (Əraf surəsi, 201)***

### Axirətə yəqinliklə inanmaq

Allah ***"O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. (Bəqərə surəsi, 4)"*** ayəsi ilə möminlərin axirətə yəqinliklə iman gətirməli olduqlarını bildirir. Axirətə yəqinliklə inanan insan ölümün labüd olduğunu, dünyanın müvəqqəti yer olduğunu qavrayar və əsl həyatın axirətdə olacağını dərk edər. Axirətdə yenidən diriildiləcəyini, orada əbədi yaşayacağını



bilən və cənnətin tükənməz nemətləri haqqında düşünən insan bu gözəl həyata qovuşmaq üçün var gücüylə Allah'ın ondan razı qalması üçün çalışar. Dünyanın müvəqqəti bər-bəzəyinə və həvəslərinə aludə olaraq ölümü və axirəti unutmaz. Ölüm zamanını bilmədiyinə görə, daima ölümə hazır olmalı olduğunu düşünər, bunun üçün uca Allah'ın əmr və qadağalarına cidd-cəhdlə riayət edər, ibadətlərini tam yerinə yetirər. İnsanın axirətdəki sonsuz nemətləri dünyadakı müvəqqəti nemətlərdən üstün tutması güclü dərrakəyə sahib olduğunu göstərir.

## Göylərin və yerin yaradılışı haqqında düşünmək

Bir mömin namaz qılmaq, oruc tutmaq kimi ibadətlərini cidd-cəhdlə yerinə yetirməklə yanaşı, dərin anlayışa da sahib olur. Quranda diqqət çəkilən göylərdəki və yerdəki yaradılış dəlilləri üzərində dərindən düşünmək möminin imanının artmasına, dərin ağıl və qavrayış qabiliyyəti qazanmasına səbəb olur. Çünki göylərin, yerin və bunların arasındakıların yaradılışı haqqında düşünmək Allah'ı daha yaxından tanımağa, Onun qüdrətinin sonsuzluğunu daha yaxşı qavramağa və beləliklə, elm sahibi olmağa vəsilə olar. Təmiz ağıl sahibi möminlərin bu xüsusiyyəti Quranda belə xəbər verilir:

*O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah`ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru! (Ali-İmran surəsi, 191)*

## Nəticə: ağıl möminə böyük güc qazandırır

Allah Quranda ağıl sahibi olan möminləri ***"O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allah'ın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır. (Zumər surəsi, 18)"*** şəklində tərif edir. Bu kəslər Allah'ın onlara göstərdiyi yola tam tabe olduqlarına, Quranda bildirilən hökmləri dəqiqliklə yerinə yetirdiklərinə və vicdanlarına qəti tabe olduqlarına görə, Allah onları ağıl kimi böyük nemətlə mükafatlandırmışdır.

Ağıl insana bir çox nemətin qapısını açan çox mühüm xüsusiyyətdir. Ağıllı insan olduğu hər mühitdə, etdiyi hər hərəkət və dediyi hər sözdə fərqli olduğunu hiss etdirir. Ona görə, böyük hörmət və heyranlıq oyandırır. Ağıl



doğrunu yanlışdan ayırmağı, hikmətli və gözəl danışmağı, gözəl əxlaqla davranmağı, hər hansı hadisə baş verdikdə bir çox insanın görə bilmədiyi təfərrüatları görməyi, incə təhlillər aparmağı və hadisələrdən ən doğru, ən hikmətli nəticələr çıxarmağı təmin edir. Bütün bunlarla yanaşı, ağıl insanın ruhunda gözəlliklərdən daha çox zövq almağı təmin edən dərinlik meydana gətirir. Buna görə, çox insanın adi qarşıladığı və alışqanlıqla baxdığı bir çox şeyin ardında gizlənən gözəllikləri ağıl sahibi olan möminlər dərhal görürlər. Ancaq ən əsası odur ki, ağılın qazandırdığı dərin iman və təvəkkül möminlərə Allah'ın iznilə cənnəti qazandırır. Uca Allah bir Quran ayəsində möminləri belə müjdələyir:

***Allah, şübhəsiz ki, möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır. Allah`dan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur! (Tövbə surəsi, 111)***

Dərin düşünməyin qazandırdığı iman və bu imanın artmasıyla artan ağıl möminlərin Allah'ı daha yaxşı, yaxından tanımalarını, hər an hər yerdə Onun təcəllilərini görmələrini və Allah'ın qüdrətini layiqincə təqdir etmələrini təmin edir.

Təmiz ağıl sahibi olmaq hər cür boş düşüncədən, heç kimə faydası olmayan boş şübhələrdən və mənasız düşüncələrdən uzaq ağıla sahib olmaqdır. Tamamilə Allah'ın razılığını qazanmaq üçün istifadə edilən belə bir ağıl həm dünyada, həm də axirətdə rahat həyat təmin edir.





# Lut Qövmü Və Məhv Olan Şəhər

*“Lut qövmü də xəbərdarlıqları yalan saydı. Biz onların üstünə qasırğa ilə birgə daşlar göndərdik. Yalnız Lutun ailəsini sübh çağı xilas etdik”. (Qamər surəsi, 33-34)*

Hz. Lutun qövmü homoseksuallığın yayıldığı azğın qövm idi. Hz. Lut Allah`ın dinini təbliğ etdikdə onu inkar edərək azğınlıqlarına davam etdilər. Nəticədə, Allah Lut qövmünü qorxunc fəlakətlə həlak etdi.

Hz. Lutun yaşadığı şəhər Əhdi-ətiqdə adı keçən Sodomdur. Arxeoloji qazıntılarda şəhərin İsrail-İordaniya sərhədi boyu uzanan Ölü dənizin yaxınlıqlarında yerləşdiyi məlum olmuşdur. Bu qövmün Quranda yazılanlara uyğun şəkildə həlak olduğu aşkar edilmişdir.
Allah Quranda belə buyurmuşdur:

*“Lut tayfası da elçiləri təkzib etdi. O vaxt qardaşları Lut onlara dedi: “Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar ediləsi bir elçiyəm. Artıq Allah`dan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir muzd istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. Doğrudanmı, siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız”. Onlar dedilər: “Ey Lut! Əgər (bu sözlərinə) son qoymasan, mütləq qovulanlardan olacaqsan!” Dedi: “Həqiqətən, mən sizin əməlinizə nifrət edənlərdənəm!” (Şüəra surəsi, 160-168)*

Onları doğru yola dəvət etməsinin əvəzində qövmü hz. Lutu hədələdi, onlara doğru yol göstərməsinə görə qəzəbləndilər, onu sürgün etmək istədilər. Buna görə, hz. Lut Allah`dan yardım istədi:

*“(Lut:) “Ey Rəbbim! Fitnə-fəsad törədən qövmə qarşı mənə yardım et!” – dedi”. (Ənkəbut surəsi, 30)*

*“Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!” (Şüəra surəsi, 169)*

**Allah iki mələk göndərdi. Hz. Lutu xilas edib sübh çağı Lut qövmünü həlak etdi:**

*“And olsun ki, onlar (Lutdan) öz qonaqlarını onlara təslim etməyi tələb etdilər. Biz də onları kor etdik (və) “İndi əzabımı və təhdidlərimi dadın!” - (dedik). And olsun ki, səhər tezdən onları yaxalarından əl çəkməyəcək bir əzab yaxaladı”. (Qamər surəsi, 37-38)*



## Quranda qövmün həlakı belə tərif edilir:

*“Günəş doğanda qorxunc səs onları yaxaladı. Oranın altını üstünə çevirdik və onların üzərinə odda bişmiş gil daşlar yağdırdıq. Şübhəsiz ki, bunda başa düşənlər üçün dəlillər vardır. Həqiqətən, o, yolun üstündə hələ də durmaqdadır!” (Hicr surəsi, 73-76)*

*“Əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik və üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq. Onlara Rəbbinin dərgahında əlamət qoyulmuşdur. Onlar zalımlardan uzaq deyildir”. (Hud surəsi, 82-83)*

Bu fəlakətdən hz. Lut və sayları ancaq bir evin sakinləri qədər olan iman gətirənlər xilas edildi. Azğın qövm isə yerlə-yeksan oldu. Hz. Lutun arvadı da iman gətirmədiyinə görə həlak edildi:

*“Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Bir gör günahkarların axırı necə oldu!” (Əraf surəsi, 83-84)*

## Lut gölündəki açıq-aşkar dəlillər

Allah Lut qövmünün həlakını Quranda belə bildirmişdir:

*“Əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik və üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq”. (Hud surəsi, 82)*

Ayədə “altını üstünə çevirmək” ifadəsi ilə güclü bir zəlzələ nəticəsində ərazinin yerlə yeksan olduğu aydın olur. Belə ki, Lut gölü belə bir zəlzələnin baş verdiyinə dair açıq-aşkar dəlillər daşıyır.

Alman arxeoloq Verner Keller bu mövzu haqqında belə deyir: “Bu bölgədəki böyük çökmədə partlayışlar, ildırımlar, yanğınlar və təbii qazlarla birlikdə qorxunc zəlzələ baş verib və Siddim vadisi ilə birlikdə Lut qövmünün şəhərləri də yerin dərinliklərinə gömülüblər”. (Werner Keller, Und die Bibel hat doch recht, The Bible as History; a Confirmation of the Book of Boks, New York: William Morrow, 1956)

Quranda “üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq” cümləsində isə Lut gölünün sahilində baş verən vulkanik



partlayış və nəticədə püskürən "bişmiş" qaya və daşlar anlaşılır. Verner Keller bu barədə belə deyir: "Zəlzələdə yer qabığının çatlayıb çökməsi qabığın altında yatan vulkanlara sərbəst yol açmışdır. Şərianın yuxarı vadisində bu gün də sönmüş kraterlərə, əhəng təbəqələrin üzərində böyük lava kütlələri və bazalt süxurlarına rast gəlinir".

Lava və bazalt təbəqələri vulkanik partlayışın və zəlzələnin olduğunu göstərir. Quranda "üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq" ifadəsilə tərif edilən hadisə də böyük ehtimalla bu vulkanik partlayışdır. Eyni ayədə "əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik" şəklində ifadə edilən hadisə isə Rift dərəsində tektonik mənşəli və vulkanların yerin səthinə sürətlə çıxmasına səbəb olan zəlzələ və bu zəlzələ nəticəsində əmələ gələn yarğan və çökmələr olmalıdır.

Lut gölündə günəş şüaları suya uyğun bucaq altında əks olunduqda insan təəccüblü görüntü ilə qarşılaşır. Suyun içində yaşıl rəngli ağac gövdələri ilə ağac qalıqları görünür. Bunlar da göldəki duzun konservləşdirdiyi ağaclardır. (Harun Yəhya, "Xalqların həlakı")

Aparılan tədqiqatlarda Lut qövmünü məhv edən zəlzələnin yer qabığının çox uzun məsafədə çatlaması nəticəsində meydana gəldiyi məlum olur. İordan çayının axın istiqamətində 180 metr məsafə boyu aşağıya enməsi və Lut gölünün dəniz səviyyəsindən 400 m alçaq olması böyük geoloji hadisənin baş verdiyini göstərir.

Lut qövmünün başına gələnlər bütün dünyaya ibrətdir. Hələ də dünyanın bir çox yerində Lut qövmündəkinə bənzər şəkildə əxlaqi degenerasiya var və dövrümüzdəkilər də keçmiş qövmlərin başına gələn fəlakətlərdən dərs almayaraq günahlarında israr edirlər.





# ATOM NÜVƏSİNDƏKİ MÖHTƏŞƏM XÜSUSİYYƏTLƏR

Normal şəraitdə atomun daxilində protonların bir-birlərini itələmələri və mümkün qədər bir-birlərindən uzaqlaşmaları gərəkir. Çünki protonlar müsbət yüklüdürlər və eyni yüklər bir-birlərini daim itələyirlər. Ancaq kainatda mövcud olan güclü nüvə qüvvəsi sayəsində protonlar yüksüz olan neytronlarla birlikdə nüvədə bir-birlərinə birləşmiş haldadır. Bir başqa sözlə, güclü nüvə qüvvəsi protonları bir yerdə tutaraq atomun mərkəzindəki nüvəni əmələ gətirir.

Bu qüvvə atomun nüvəsindəki protonların və neytronların dağılmadan bir yerdə olmalarını təmin edir. Atomun nüvəsi bu şəkildə əmələ gəlir. Bu qüvvənin şiddəti o qədər güclüdür ki, nüvənin içindəki proton və neytronların sanki bir-birinə yapışmasını təmin edir. Buna görə də bu qüvvəyə sahib olan çox kiçik zərrəciklərə latınca "yapışdırıcı" mənasını verən "glüon" deyilir. Bu yapışmanın şiddəti çox həssas nizamlanmışdır. Bu yapışdırıcının qüvvəsi proton və neytronların bir-birlərinə istənilən məsafədə olmalarını təmin etmək üçün xüsusi olaraq müəyyən edilmişdir. Həmin qüvvə bir az daha yapışdırıcı olsa, proton və neytronlar bir-birlərinin içinə keçəcək, bir az daha az olsa dağılacaqlar. Məhz bu qüvvə böyük partlayışın (Big Bang) ilk saniyələrindən bəri atomun nüvəsinin əmələ gəlməsi üçün lazım olan yeganə dəyərə malikdir.

Bu gücün şiddətini anlamaq üçün atom bombasının meydana gətirdiyi təsiri düşünmək kifayətdir. Bu bomba atom nüvəsinə bir zərrəcik (ümumiyyətlə, neytron) atılması ilə nüvənin parçalanması nəticəsində əmələ gəlir. Nüvə parçalandıqda nüvədəki proton və neytronları bir yerdə tutan qüvvə ortaya çıxır. Qarşısına çıxan hər canlını külə döndərən və radioaktiv təsiri illərlə davam edən bənzərsiz güc əmələ gəlir. Bu, yalnız gözlə görünməyən bir atomun içində gizlənmiş və qarşısındakı insanları aciz və müdafiəsiz buraxan qüvvədir.

Nüvəyə təsir edən həmin güclü nüvə qüvvəsi elə tarazlanıb ki, kainatın əmələ gəlməsindən bəri maddənin mövcud olması və eyni zamanda, tarazlıq halında varlığını davam etdirməsi üçün ən uyğun dəyərə malikdir. Əgər qüvvə bir az daha güclü olsaydı, proton və neytronlar bir-birlərinin içinə keçərdilər. Əgər bir az daha az olsaydı, bu hissəciklər bir-birlərindən ayrılıb uzaqlaşardılar. Bu vəziyyətdə canlı və ya cansız varlıqlardan, dünya, Günəş və ya kainatdan şübhəsiz ki, bəhs edilə bilməzdi.

Bütün əks qütblər bir-birini cəzb edərkən, elm adamları tərəfindən ancaq güclü nüvə qüvvəsi ilə açıqlana bilən atom nüvəsindəki protonların bir-birini itələməməsi Allah'ın bənzərsiz gücünün dəlilidir. Beləliklə, Allah bənzərsiz və sonsuz gücü sayəsində atomun nüvəsində təbiət qanunlarından kənar mövcud olan bir yaradılışla hər şeyin əmələ gəlməsini təmin etmişdir.





# HZ. İBRAHİMİN HƏYATI VƏ MÜSƏLMANLARIN İLK EVİ KƏBƏNİN TARİXİ

Hz. İbrahim bütlərə sitayiş edən qövmünə Allah'ın vəhyini təbliğ etmiş və onları xəbərdar edib qorxutmuşdur. Uzun müddət haqq dini, dünyanı, axirəti, həyatı və ölümü onlara izah etmiş, ən yaxını olan atasını isə daima Allah'ın dininə dəvət etmişdir.

Hz. İbrahim Quranda haqqında tez-tez bəhs edilən, Allah'ın təriflədiyi və hənif (Allah'a şirk qoşmadan ibadət edən) müsəlman olduğu bildirilən peyğəmbərimizdir. Quranda İbrahim peyğəmbərlə bağlı belə buyurulur:

***Yaxşı işlər görərək Allaha təslim olan və İbrahimin hənif dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi (Özünə) dost tutmuşdur. (Nisa surəsi, 125)***

Hz. İbrahimin Allah'ın dostu vəsfinə layiq görülməsi onun Allah'a olan sevgi və qorxusunun göstəricisidir.

### Hz. İbrahimin bütpərəst qövmü

Hz. İbrahimin dövründə Mesopotamiya ovalığında Orta və Şərqi Anadoluda yaşayan bir çox qövm göyə və ulduzlara sitayiş edirdi. Habelə, bu qövmlər saxta tanrılara aid bir çox qabartma rəsm və heykəlcik düzəldir, bunlara tapınırdılar. Çox geniş yayılmış bu inanc xüsusilə Yaxın Şərqdə kök salmış və bu uzun müddət davam etmişdi. Bölgədə yaşayan insanlar eramızın 600-cü ilinə qədər bu saxta tanrılara sitayiş edirdilər. Bu inancın nəticəsi olaraq Mesopotamiyadan Anadolunun içərilərinə qədər olan bölgələrdə "ziqqurat" adlanan və həm rəsədxana, həm də məbəd kimi istifadə edilən tikililər inşa edilmişdi.

Dövrümüzdə ancaq arxeoloji qazıntılarla aşkar edilən bu inanc forması əsrlər əvvəl Quranda xəbər verilmişdir. Quranda bildirildiyinə görə, hz. İbrahim bu saxta tanrılara tapınmağı inkar etmiş və ancaq yeganə gerçək İlah olan Allah'ı qəbul etmişdi. Qurani-kərimdə hz. İbrahimin bu davranışından belə bəhs edilir:

***Bir zaman İbrahim atası Azərə demişdi: "Sən bütləri tanrılarmı qəbul edirsən? Mən səni və sənin camaatını açıq-aydın azğınlıq içində görürəm". (Ənam surəsi, 74)***

Ancaq başda atası Azər olmaqla, qövmü hz. İbrahimə inanmayıb inkar etmişdi. Qövmünün təzyiqi artdıqda hz. İbrahim həyat yoldaşı və ailəsi ilə birlikdə başqa yerə köçməli (hicrət etməli) olmuşdur. Ayələrdə belə buyurulur:



*Mən sizi və Allah'dan başqa sitayiş etdiyiniz (bütləri) tərk edir və öz Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə dua etməklə heç vaxt bədbəxt olmayım". İbrahim onları və onların Allah'dan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik. (Məryəm surəsi, 48-49)*

## Kəbənin inşa edilməsi

Hz. İbrahim qövmündən ayrılıb yola düşür, Məkkəyə gəldikdə Allah'dan gələn vəhylə bir yerdə məskunlaşaraq bir ev inşa edir. Həmin ev müsəlmanların bu gün də müqəddəs qəbul etdiyi Kəbədir. Quranda belə bildirilir:

*Bir zaman Biz İbrahimə Evin (Kəbənin) yerini nişan verib: "Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!" (–demişdik). (Həcc surəsi, 26)*

Hz. İbrahim oğlu hz. İsmayıl ilə birlikdə Kəbəni tikməyə başlayır və işləyərkən Allah'a dua edirlər. Bunu xəbər verən ayə belədir:

*Ey Rəbbimiz! Mən nəslimdən bəzisini Sənin mühafizə olunan Evinin yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar namaz qılsınlar deyə (belə etdim). İnsanların bir qisminin qəlbini onlara meyilli et və onlara (növbənöv) məhsullardan ruzi ver ki, bəlkə şükür etsinlər. (İbrahim surəsi, 37)*

Hz. İbrahim Məkkəyə gəldikdə Məkkə şəhər deyildi, boş, uzaq yer idi. Hz. İbrahimin bu yeri seçməkdə məqsədinin nə olduğunu ayədəki "namaz qılsınlar deyə (belə etdim)" ifadəsindən başa düşürük. Səmimi qəlbdən Allah'a üz tutmaq və Allah'a şirk qoşan insanların içindən çıxaraq ayrılmaq Quranda nümunə göstərilən digər peyğəmbərlərin də seçdiyi yoldur. Allah hz. İbrahimin yuxarıda bildirdiyimiz duasını qəbul etmiş və Məkkə bu gün hələ də o dövrdən bəri insanların axın-axın getdiyi şəhərə çevrilmişdir. Allah hz. İbrahimi Kəbəni inşa etdikdən sonra insanları həccə çağırmaqla məsul etmişdir. Bu, ayələrdə belə xəbər verilir:

*İnsanları həccə çağır ki, onlar sənin yanına (istər) piyada və (istərsə də) hər uzaq yoldan yollanan hər cür yorğun-arğın dəvələr üstündə gəlsinlər. Qoy onlar öz mənfəətlərinin şahidi olsunlar və məlum günlərdə Allah'ın onlara verdiyi heyvanları (qurban kəsərkən) Allah'ın adını çəksinlər. Onlardan özünüz də yeyin, məzlum yoxsullara da yedirdin! (Həcc surəsi, 27-28)*

Allah Quranda Kəbənin insanlar üzərində çox mühüm təsiri olacağından bəhs etmişdir. Yuxarıdakı ayədə xəbər verilən "öz mənfəətlərinin şahidi olsunlar" ifadəsində də bu açıqlanmışdır. Kəbənin insanlar üçün müqəddəs və hidayət dolu yer olduğu "Ali-İmran" surəsinin 96-97-ci ayələrində də bildirilmişdir.

Kəbə hz. İbrahimin dövründən bəri müsəlmanların həcc üçün ziyarət etdiyi çox mühüm yer olmuşdur. Peyğəmbərimiz hz. Muhəmmədin dövründən əvvəl müşriklərin müxtəlif bütlərlə doldurduğu Kəbə Peyğəmbərimizin (s.ə.v) gəlişi ilə yenidən bütlərdən təmizlənərək Allah'ın evi vəsfini daşımağa başlamışdır (Everett C. Blake, Anna G. Edmonds, Biblical Sites in Turkey).

Kəbə müsəlmanların qibləsidir. Məkkə şəhərində Hərəmi-şərif məscidinin ortasında yerləşir. Hz. İbrahim tərəfindən tikildiyi bilinir. İslamdan əvvəl də ərəblər tərəfindən müqəddəs hesab edilən Kəbədə bir çox büt var idi. Məkkənin fəthindən sonra Kəbə bütlərdən təmizlənərək təmir edilmişdir.

Kəbənin divarları qara daşlardan tikilmişdir. 25 sm hündürlüyündə və təqribən 30 sm çıxıntılı mərmər bünövrə üzərində yerləşir.

Bu divarlar yerə qədər uzanan və yerə yaxın hissədə bünövrəyə mis halqalarla bağlanan qara örtüklə örtülüdür. Tək hissədən ibarət, hər il yenilənən örtüyün ancaq qapı və damdakı boruya qədər hissəsi kəsikdir. İpəkdən olan örtüyün üstünə kəlimeyi-şəhadət işlənmiş, dama yaxın hissəsinə qızıl işləməli lent keçirilmiş, kəmər formasında olan bu lentin üstünə də Quran ayələri işlənmişdir. Kəbənin şimal-qərb divarında yerdən 2 m hündürlükdə qızıl suyuna çəkilmiş gümüş qapı var. Qapıya xüsusi təkərli pilləkənlə çıxılır və qapı bu cür açılır. Kəbənin içində tavana çıxmaq üçün bir nərdivan və üç ağac sütun var. Daxili divarlar və döşəmə mərmərlə örtülüdür.

Tavanda qızıl və gümüş qəndillər asılıb. Qapıya yaxın yerdə gümüş çəmbərin içinə Həcəri-əsvəd yerləşdirilmişdir. Həcəri-əsvədin qarşısında Zəmzəm quyusunun yerləşdiyi bina var. Kəbənin ətrafındakı təvaf yerinə mərmər döşənmişdir.

Sultan Süleyman Qanuni tərəfindən tavanı təmir edilən Kəbə beşinci dəfə I Əhməd dövründə təmir edilmiş, IV Murad dövründə baş vermiş sel basqını nəticəsində üç tərəfi yıxılmış, padşah tərəfindən təmir edilmişdir.





# BAKTERİYALARDAKI DİZAYN

Bakteriyalar gözlə görünmürlər, ancaq xüsusi hüceyrə quruluşu sayəsində hər cür şəraitə dözümlüdürlər. Bakteriyalar bitkilərdən və heyvanlardan fərqli olaraq sürətli çoxalan və biokimyəvi təsirləri baxımından canlılar aləminin tarazlığını təmin etməkdə çox böyük əhəmiyyət daşıyan bir qrupu meydana gətirirlər. Demək olar ki, hər yerdə yaşaya bilirlər, bu səbəblə də hər hansı bir növ orqanizmdən daha çoxdurlar. Bu canlılar dünyanın sayca ən çox olan üzvləridir. Bütün ekosistem bakteriyaların fəaliyyətlərindən asılıdır və bakteriyalar insan həyatına bir çox şəkildə təsir edirlər.

Bakteriyalar bəzən oksigeni bol olan mühitlərə üstünlük verir, bəzən də oksigensiz torpaq altında yaşaya bilirlər. Bir qismi qidasını fotosintez yolu ilə təmin edərkən, bir qismi də üzvi maddələri tərkib hissələrinə ayıraraq enerji əldə edirlər. Hətta bir-birləri ilə eyni olduğu düşünülən bakteriyaların maddələr mübadilələri araşdırıldıqda belə, bunların, əslində, bir-birlərindən fərqli növlər olduqları aydın olur.

Bakteriyalar canlılar aləmində prokaryotlar adlandırılırlar. Sahib olduqları tək hüceyrə içində bir nüvə və sərbəst şəkildə gəzən məlumat bankları -DNT- var. Olduqca kompleks quruluşda hüceyrə pərdəsinə və ribosoma sahibdirlər. Yer üzündəki bütün canlıların həyati funksiyalarının bir çoxu bu prokaryotik hüceyrələrin fəaliyyətlərinə bağlı olaraq reallaşır.

Bakteriyalar olduqca yüksək və ya aşağı temperatura uyğunlaşır, torpaq altına girə bilir, havada uçur, okeanın dibində yaşaya bilir və hətta radiasiyaya qarşı dözümlü hala gələ bilirlər.

Hələ mikroorqanizmlərin quruluşunu izah edə bilməyən təkamülçülər bu canlıların strukturlarında olan estetik görünüşə heç bir məna verə bilmirlər. Uyğun şəraitlərdə bakteriyalar hər 10-30 dəqiqə içində saylarını iki dəfə artırırlar. Tək bir bakteriyanın sayı əvvəl ikiyə, sonra dördə, daha sonra səkkizə çıxaraq çoxalır və bu əməliyyat bu şəkildə davam edir. Bakteriyaların bəzi növləri -271$^{0}$ C soyuqdan və bir neçə saat içində -190$^{0}$ C dərəcədən müsbət 25$^{0}$ C-yə qədər dəyişən sürətli temperatur dəyişikliklərindən təsirlənmirlər. Bəzi növlər isə insan üçün öldürücü olan dozanın 2000 qatdan çox olan bir atom radiasiyasına belə dözə bilir. Bəziləri insan və bitkilərdəki maddələr mübadiləsinin faydalı üzvü olduğu halda, bəziləri də müxtəlif xəstəliklərə səbəb olur. ***(Böyük Larousse Lüğət və Ensiklopediyası, 3-cü cild, səh. 1237-1238 - 2000 QAT RADİASİYA)***

# Fosillər Təkamülü TƏKZİB EDİR



**Cırcırama**

Yaş: 45 milyon il
Dövr: Eosen
Tapıldığı yer: Baltikyanı bölgə, Yantarni, Rusiya

Cırcıramalar yuvarlaq iri başı olan, parlaq rəngli, qısa qanadlı, uzun bığcıqlı həşəratlardır. 2 sm boyları var, gündüz qazdıqları çuxurlarda gizlənirlər, gecə çuxurlardan çıxıb oxuyurlar. Ancaq erkəkləri ön qanadlarını bir-birinə sürtərək səs çıxarır və dişiləri cəlb edirlər. Şəkildəki kəhrəbanın içində təqribən 45 milyon ildən bəri heç pozulmadan qalmış cırcırama (Oecanthidae) görünür.

Bu həşəratın dövrümüzdəki nümunəsinə baxdıqda tamamilə eyni xüsusiyyətləri daşıdığını görürük. Bu isə bizə minlərlə canlı nümunəsində olduğu kimi, canlıların ilk dəfə yaradıldıqları gündən etibarən eyni xüsusiyyətləri daşıdığını, yəni əsla təkamül keçirmədiklərini sübut edir.



**Tarakan**

Tarakan ən qədim qanadlı həşəratdır. Fosil qeydlərində 350 milyon il əvvəl daş kömür dövründə üzə çıxır. Bu canlı ən kiçik hərəkətə, hətta hava axınına qarşı olduqca həssas çıxıntıları, mükəmməl qanadları, nüvə radiasiyasına belə davamlı quruluşu ilə yüz milyonlarla il eyni qalmışdır. Kəhrəbanın içindəki 50 milyon yaşı olan tarakanın da dövrümüzdəki nümunələrindən fərqi yoxdur.

***De: "Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur!" (İsra surəsi, 81)***

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.